

Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır

100 ilin qəzeti

# ŞƏRQ QAPISI

Sayı: 2 (24.437)

18 yanvar 2025-ci il, şənbə

www.serqqapisi.az

Təsisçi: Naxçıvan Muxtar Respublikasının Ali Məclisi


# Azərbaycan xalqının əyilməz vüqarının, dönməz iradəsinin ifadəsi



20 Yanvar faciəsinin 35-ci ildönümüdür. Tariximizin qəhrəmanlıq səhifəsi, xalqımızın vətənpərvərlik nümunəsi, azadlıq mübarizəsinin rəmzi, iftixar günüdür bu gün. 1990-cı il yanvarın 19-dan 20-nə keçən gecə tökülmüş qanlar Azərbaycan xalqının müstəqillik uğrundakı mübarizə əzmini qıra bilmədi, igid oğullarımız şəhidlik zirvəsinə yüksələrək xalqımızın yenilməzliyini, qəhrəmanlığını, Vətənə, torpağa sədaqətini bütün dünyaya, ən əsası isə faciənin təşkilatçılarına nümayiş etdirdilər. Bu tarix Azərbaycan xalqının əyilməz, vüqarlı, mübariz ruhlu olduğunu, müstəqilliyi pay olaraq deyil, haqqı olaraq qazandığını sübut etdi...

Səhifə ➡ 2




## Ulu Öndər Heydər ƏLİYEV:

*“Azərbaycan xalqı 20 Yanvarda hərbi, siyasi, mənəvi təcavüzə məruz qalsa da, öz tarixi qəhrəmanlıq ənənələrinə sadiq olduğunu, Vətənin azadlığı və müstəqilliyi naminə ən ağır sınaqlara sinə gərmək, hətta şəhid vermək əzmini bütün dünyaya nümayiş etdirdi.”*

# Azərbaycan xalqının əyilməz vüqarının, dönməz iradəsinin ifadəsi



## 20 Yanvar

(əvvəli 1-ci səhifədə)

1990-cı il yanvarın 19-da Azərbaycan SSR Ali Soveti hüquqi qüvvəsi olmayan 15 yanvar tarixli saxta qərarına əsasən yanvarın 19-dan 20-nə keçən gecədən etibarən "Bakı şəhərində fövqəladə vəziyyət tətbiq edilməsi haqqında" fərman qəbul edib.

Yanvarın 19-da SSRİ DTK-nın "Alfa" qrupu və respublika DTK-sının rəhbərliyi tərəfindən təşkil edilən əməliyyat nəticəsində ölkə televiziyasının enerji bloku partladıldı ki, Bakıda fövqəladə vəziyyət elan edilməsi və qoşunun şəhərə girməsi barədə əhaliyə rəsmi məlumat çatdırılmasın. Halbuki həmin vaxt 26 yerdə piketlər, barrikadalar qurulmuş, şəhərdəki 60 qoşun hissəsindən 34-nün, o cümlədən Salyan kazarmasının giriş-çıxış yolu kəsilmişdi. Yanvarın 19-dan 20-nə keçən gecə fövqəladə vəziyyətin tətbiqinə baxmayaraq, qoşun hissələri yanvarın 19-da saat $21^{00}$-dan etibarən birinci olaraq Türkan-Qala tərəfdən şəhərə yeridildi. "Bakı əməliyyatı"na rəhbərliyi birbaşa SSRİ müdafiə naziri Dmitri Yazov, SSRİ daxili işlər naziri Vadim Bakatin, SSRİ DTK sədrinin müavini Filip Babkov həyata keçirmişdilər.

Bakı qarnizonunun qoşunları, gətirilən hərbi hissələr, hərbi gəmilərdən çıxarılan desant qrupları şəhər üzərinə hücuma keçmişdi. Ağır hərbi texnika çox asanlıqla barrikadaları dağıtmışdı. Şəhərin küçələri güllələnmiş və yaralanmış günahsız adamların – qocaların, qadınların, uşaqların qanına qərq olmuşdu. Hərbçilər təsadüfən küçəyə çıxanları, yaşayış evlərini, təcili yardım maşınlarını atəşə tutur, yaralıları öldürür, meyitləri yandırır, təhqir edir, eybəcər hala salırdılar. Adamları ağır hərbi texnikanın tırtılları altına salır, əzabla öldürürdülər.

Fövqəladə vəziyyətin tətbiqi əhaliyə elan olunanadək hərbi qulluqçular 82 nəfəri amansızcasına qətlə yetirmiş, 20 nəfəri ölümcül yaralamışdılar. Fövqəladə vəziyyət elan edildikdən sonra isə yanvarın 20-də və sonrakı günlərdə Bakı şəhərində 21 nəfər öldürülmüşdür. Fövqəladə vəziyyətin elan olunmadığı rayonlarda – yanvarın 25-də Neftçalada və yanvarın 26-da Lənkəranda daha 8 nəfər qətlə yetirilmişdir.

Sovet qoşunlarının qanunsuz yeridilməsi nəticəsində Bakıda və Azərbaycanın rayonlarında 146 nəfər öldürülmüş, 744 nəfər yaralanmış, 841 nəfər qanunsuz həbs olunmuşdur. Hərbi qulluqçular tərəfindən 200 ev və mənzil, 80 avtomaşın, o cümlədən təcili yardım maşınları, yandırıcı güllələrin törətdiyi yanğın nəticəsində dövlət əmlakı və şəxsi əmlak məhv edilmişdir. Həlak olanların arasında qadınlar, uşaqlar, qocalar, həmçinin təcili yardım işçiləri və polislər də var idi. Yanvarın 20-də artıq bütün dünya Bakıda törədilmiş dəhşətli qırğından xəbər tutdu. Sovet qoşunlarının Bakıya hərbi müdaxiləsi dünyanın bir sıra ölkələrində etirazla qarşılandı. Qardaş Türkiyədə əhali Bakıda törədilən cinayətlərə sərt reaksiya verərək ölkənin hər yerində mitinq və nümayişlər keçirdi.

**Naxçıvanın işğalı da mənfur planlardan idi**

Həmin dövrdə Naxçıvanda da vəziyyət olduqca ağırlaşmışdı. Düşmən qüvvələri, əsasən, Sədərək rayonu istiqamətində hücuma keçərək evləri, həyətləri, məktəbləri, inzibati binaları güllələrana, top atəşinə tuturdu. Ermənilərin bu qədim yurdu ələ keçirməyə iştahalandıran Sədərəyin ticarət, nəqliyyat əlaqələri baxımından əlverişli mövqedə yerləşməsi, xüsusilə də Türkiyə ilə birbaşa sərhədinin olması idi. Ancaq əhalinin birliyi, bərabərliyi qarşısında ağ bayraq qaldırdılar, arzuları gözlərində qaldı yağıların. Naxçıvanın bütün ərazilərindən insanlar Sədərəyin müdafiəsinə axışdı. Rayonda bir dənə də olsun, ev boşalmadı, hər kəs yurdunu qorudu. İgid övladlar böyük şücaət və qəhrəmanlıq göstərərək erməni cəlladlarının muxtar respublika ilə bağlı çoxdankı arzularını gözündə qoydu, mənfur planlarını puça çıxardı.

Onu da xüsusi vurğulamaq lazımdır ki, 1990-1993-cü illərdə igid oğulların şücaəti ilə yanaşı, uzaqgörən siyasətçi Ulu Öndər Heydər Əliyevin də Sədərəyin düşməndən qorunmasında böyük tarixi xidmətləri, əvəzolunmaz rolu oldu. Naxçıvanın hər yerindən buraya üz tutanların təşkilatlanması uğrunda həyat keçirən Ümummilli Liderin həmin illərdə bir neçə dəfə rayona gəlişi hər kəsi ruhlandırdı, sabaha inamını artırdı. Naxçıvanda baş verən hadisələri Ümummilli Liderimiz belə dəyərləndirib: ***"1990-cı il yanvarın 19-dan 20-nə keçən gecə sovet qoşunlarının Bakıya hücumundan 8 saat əvvəl sovet qoşun birləşmələri və erməni silahlı dəstələri Naxçıvan Muxtar Respublikasına hücum etmiş, qan tökülmüş və erməni quldur dəstələri Naxçıvan Muxtar Respublikasının Kərki kəndini işğal etmişdir. Ermənistanın apardığı təcavüzkarlıq siyasəti nəticəsində vaxtilə Azərbaycanı Naxçıvanla bağlayan dəmiryol xətləri və avtomobil yolları kəsilmiş, Naxçıvana Azərbaycandan təcrid olunmuş vəziyyətdə, blokada şəraitində yaşamaq taleyi qismət olmuşdur. Məhz belə ağır şəraitdə Naxçıvan əhalisi böyük mərdlik və yenilməzlik nümayiş etdirərək Azərbaycanın bu qədim torpağını ermənilərin işğalı təhlükəsindən xilas etdi və onun muxtariyyət statusunu qoruyub saxladı".***

**20 Yanvar hadisələrinə ilk siyasi qiymət**

Bu qanlı terror aktına ilk dəfə öz etirazını bildirən Ümummilli Liderimiz Heydər Əliyev olub. Ulu Öndər 1990-cı il yanvarın 21-də Azərbaycanın Moskvadakı daimi nümayəndəliyinə gələrək mətbuat konfransı keçirib, bu ağır cinayəti pisləyərək əliyalın əhalinin kütləvi şəkildə qətlə yetirilməsini hüquqa, demokratiyaya və insanlığa zidd aksiya kimi kəskin ittiham edib. Görkəmli dövlət xadimi Bakıda törədilən qanlı faciənin təşkilatçılarını cinayətkar adlandırıb və aksiyanı törədənlərin məsuliyyətə cəlb olunmasını qətiyyətlə tələb edib. Bu məqamda xüsusi vurğulamaq lazımdır ki, SSRİ-nin hələ hökmünü sürdürdüyü vaxtda onu və başçısını paytaxtın özündə tənqid etmək, sözün əsl mənasında, böyük hünər və cəsarət tələb edirdi. Ancaq Ulu Öndərimiz öz bəyanatında açıq şəkildə ozamankı SSRİ rəhbərinin birbaşa göstərişi ilə tökülən qanlara etirazını, insanların azadlıq istəyinin məhv edilməsinin mümkünsüzlüyünü bildirdi, ağır günlərdə xalqının yanında olduğunu bir daha sübut etdi. Dahi şəxsiyyətin bu bəyanatı bütün dünyada geniş əks-səda doğurub. Ulu Öndər sonradan o günləri xatırlayaraq deyib: ***"Azərbaycan xalqı 20 Yanvarda hərbi, siyasi, mənəvi təcavüzə məruz qalsa da, öz tarixi qəhrəmanlıq ənənələrinə sadiq olduğunu, Vətənin azadlığı və müstəqilliyi naminə ən ağır sınaqlara sinə gərmək, hətta şəhid vermək əzmini bütün dünyaya nümayiş etdirdi".***

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin 1990-cı il 21 noyabr tarixli sessiyasında Ümummilli Liderimiz tərəfindən hazırlanan və Onun təşəbbüsü ilə qəbul edilən "1990-cı ilin yanvar ayında Bakı hadisələrinə siyasi qiymət verilməsi haqqında" Qərarda ilk dəfə olaraq yanvar hadisələrinə siyasi qiymət verilir, törədilən qırğının təşkilatçılarının məsuliyyətə cəlb olunması tələb edilirdi. Qərarda deyilirdi: *"Naxçıvan Muxtar Respublikasının Ali Məclisi 1990-cı ilin yanvar ayının 19-dan 20-nə keçən gecə və sonrakı günlərdə Bakıda baş vermiş hadisələrə münasibətini bildirərək qeyd edir ki, sovet ordusunun xüsusi təyinatlı cəza dəstələri, hərbi dəniz donanmasının və daxili qoşunların bölmələri Bakı şəhərini işğal etmiş, dinc əhaliyə qarşı görünməmiş vəhşiliklər törədərək silahlı təcavüz göstərmişlər. Azərbaycan xalqının demokratiya və milli azadlıq uğrunda mübarizəsini boğmaq məqsədi daşıyan bu işğalçı hərəkət nəticəsində görünməmiş vəhşiliklərə yol verilmiş, günahsız insanlar, o cümlədən uşaqlar, qocalar, qadınlar qətlə yetirilmiş, yüzlərlə adam yaralanmışdır. Respublika rəhbərliyi əvvəlcədən xalqa xəyanət yolu tutaraq bu qəsdin qarşısını almaq üçün heç bir əməli tədbir görməmiş, səbatsızlıq göstərmiş, yol verilən cinayətlərin iştirakçısı olaola zahirən hadisələrdən kənarda qalmağa çalışmışdır".* Bu mühüm tarixi sənəddə 20 Yanvar gününün hər il Naxçıvan Muxtar Respublikasında "Milli Matəm Günü" kimi qeyd olunması da öz əksini tapmışdır. 1992-ci il yanvarın 13-də isə daha bir tarixi addım atılıb, "1990-cı ilin yanvar ayında Bakı faciəsi ilə əlaqədar Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Rəyasət Heyətinin bəyanatı" qəbul olunub.

Görkəmli dövlət xadimi Heydər Əliyevin 1993-cü ildə xalqın təkidli tələbi ilə hakimiyyətə qayıdışından sonra 20 Yanvar faciəsinə dövlət səviyyəsində siyasi-hüquqi qiymət verilib. Ümummilli Liderimizin 1994-cü il yanvarın 5-də imzaladığı Fərmanda Azərbaycan Respublikasının Milli Məclisinə hadisəyə tam siyasi-hüquqi qiymət verilməsi tövsiyə olunub. 1994-cü ilin fevralında Milli Məclisin xüsusi sessiyasında Azərbaycana qoşun yeridilməsinin xalqımıza qarşı hərbi təcavüz və cinayət kimi qiymətləndirilməsi, təqsirkarların məsuliyyət dərəcəsinin müəyyənləşdirilməsi də məhz Ümummilli Liderimizin təşəbbüsü ilə baş verib.

**Faciə qurbanlarının xatirəsinə ucaldılan abidə – suveren Azərbaycan**

Bu gün Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev 20 Yanvar şəhidlərinin xatirəsinin əbədiləşdirilməsi, adlarının uca tutulması, o cümlədən onların ailələrinin sosial müdafiəsinin gücləndirilməsini daim diqqət mərkəzində saxlayır, bu istiqamətdə mühüm tədbirlər həyata keçirilir. Azərbaycan dövlətinin iqtisadi, siyasi və hərbi qüdrətinin günbəgün artması, haqq səsimizin beynəlxalq tribunalardan səslənməsi xalqımızın bir daha faciələrlə, soyqırımlarla sınağa çəkilməyəcəyinə təminat verir. Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin rəhbərliyi ilə 2020-ci il sentyabrın 27-də etibarən 44 gün davam edən Vətən müharibəsində Azərbaycan misilsiz tarixi zəfər qazandı, müzəffər Ordumuz əzəli torpaqlarımızı işğaldan azad etdi. Beləliklə, bütün şəhidlərimizin qisası alındı, tökülən qanlar yerdə qalmadı. Ölkə Prezidentinin də dediyi kimi: ***"Azərbaycan xalqı öz böyüklüyünü göstərdi, yüksək mənəvi ruhunu göstərdi. Bu Qələbənin səbəbkarı da Azərbaycan xalqıdır. Biz birlik, iradə, əzmkarlıq, milli ruh göstərərək tarixi missiyamızı yerinə yetirdik".*** 2023-cü il sentyabrın 19-20-də həyata keçirilən lokal xarakterli antiterror tədbirləri ilə ölkəmizin ərazi bütövlüyü və suverenliyi tam təmin olundu.

1990-cı il yanvarın 19-dan 20-nə keçən gecə törədilən faciə istiqlaliyyət, suverenlik, müstəqillik uğrunda mübarizəyə qalxmış Azərbaycan xalqının apardığı mücadilənin unudulmaz səhifəsidir. Azərbaycan xalqı onun qanlı yaddaşında silinməz iz buraxan 20 Yanvar faciəsini daim xatırlayır, öz qəhrəman övladlarının əziz xatirəsini dərin ehtiramla yad edir. Hər il yanvarın 20-də Bakı vaxtı ilə saat $12^{00}$-da Azərbaycanın bütün ərazisində 20 Yanvar şəhidlərinin xatirəsi bir dəqiqəlik sükutla yad olunur. Şəhidlərimiz və Şəhidlər xiyabanı azadlığımızın, müstəqilliyimizin, milli iradəmizin simvolu kimi bundan sonrakı nəsillərə də bir qürur mənbəyi olacaqdır. Tarixi Zəfərimiz, müstəqil və qüdrətli Azərbaycan isə şəhidlərimizin ruhuna ehtiramın ən yüksək ifadəsidir. Nə qədər ki bütöv, suveren Azərbaycan, müzəffər Ordumuz, qətiyyətli liderimiz, xalq-dövlət həmrəyliyi var, şəhidlərimizin xatirəsi də əbədi yaşayacaq!

**Nail ƏSGƏROV**




# Beynəlxalq aləmdə, İslam dünyasında nüfuzun göstəricisi – D-8 üzvü Azərbaycan

Tarixən İslam sivilizasiyasının mühüm mərkəzlərindən biri kimi tanınan Azərbaycan müstəqillik qazandıqdan sonra bu missiyasını daha müasir formada, yeni reallıqlar zəminində uğurla reallaşdırmaqda davam edir. Ölkəmizin xarici siyasət kursunda İslam dünyasının inkişafı, müsəlman dövlətləri ilə münasibətlər prioritet istiqamətlərdəndir və strateji əhəmiyyət daşıyır. Təsadüfi deyil ki, Azərbaycan müstəqilliyini bərpa etdikdən sonra keçmiş sovet respublikalarından ilk olaraq İƏT-ə üzv olmaq barədə müraciət edərək təşkilata tamhüquqlu üzv qəbul olunub. İslam həmrəyliyi naminə daim əhəmiyyətli təşəbbüslərlə çıxış edən respublikamızın müsəlman dəyərlərinə verdiyi önəmin, eyni zamanda müsəlman dünyasındakı rolunun nəticəsidir ki, son 15 ildə 3 şəhərimiz – 2009-cu ildə Bakı, 2018-ci ildə Naxçıvan və 2024-cü ildə Şuşa İslam mədəniyyətinin paytaxtı seçilib. Həmçinin Prezident cənab İlham Əliyevin Sərəncamı ilə 2017-ci il ölkəmizdə "İslam həmrəyliyi ili" elan edilib, həmin il həyata keçirilən silsilə tədbirlərin mühüm tərkib hissəsi kimi Azərbaycan paytaxtında IV İslam Həmrəyliyi Oyunları baş tutub. İslam dünyasının inkişafına xidmət edən, müsəlman ölkələrinin həmrəyliyi naminə bütün bu və digər mühüm töhfələrin, eləcə də aparılan uğurlu diplomatiyanın, etibarlı əməkdaşlıq əlaqələrinin məntiqi nəticəsi olaraq ötən ilin sonu, daha dəqiq desək, dekabrın 19-da Azərbaycan daha bir nüfuzlu təşkilat olan D-8-ə üzv qəbul edildi...

D-8-in tarixi əhəmiyyətinə gəlincə bu, 1997-ci ildə İstanbulda yaradılması elan olunan beynəlxalq bir təşkilatdır və fəaliyyəti dövründə inkişaf edən səkkiz müsəlman ölkəsinin iqtisadi və siyasi əməkdaşlığını gücləndirməyi qarşıya məqsəd qoyub. Türkiyə, İndoneziya, İran, Pakistan, Banqladeş, Nigeriya, Misir və Yəməndən ibarət təşkilat üzv ölkələr arasında birgə ticarət, investisiya və texnoloji əməkdaşlıq yaratmaq üçün müxtəlif proqramlar həyata keçirir, əlaqələr, əsasən, təhsil, mədəniyyət və sosial sahələr üzərindən qurulur. Eyni zamanda dövlətlər arasında iqtisadi əlaqələrin artırılması və inkişaf etməkdə olan ölkələrin dünya bazarlarında daha böyük rol oynaması üçün təşviqedici tədbirlər görülür. Bir milyarddan çox əhalisi olan və müsəlman ölkələrinin iqtisadiyyatının 60 faizini təşkil edən D-8-in ümumi daxili məhsul istehsalı 5 trilyon dollardan çoxdur. Nəzərə alsaq ki, dünyada 60-a yaxın müsəlman ölkəsi var və 30 ilə yaxın müddətdə təşkilat sıralarına heç kimi qəbul etməyib, o zaman Azərbaycanın bu təşkilata üzvlüyü olduqca uğurlu bir addımdır fikrini əminliklə söyləyə bilərik. Ölkə Prezidenti cənab İlham Əliyev bu il yanvarın 7-də yerli televiziya kanallarına müsahibəsində də məhz bu məqama xüsusi toxundu və təşkilata üzvlüyü mühüm diplomatik uğur kimi dəyərləndirdi: ***"Bu bizim üçün növbəti uğurlu addım oldu. Çünki Azərbaycanın bu təşkilata qəbul edilməsi ölkəmizin nüfuzunu bir daha göstərir... Birinci genişlənmə qərarından sonra qəbul edilən üzv Azərbaycan oldu. Əlbəttə ki, bu, ölkəmizin nüfuzunu, eyni zamanda beynəlxalq aləmdə rolumuzu göstərir".***

Azərbaycanın D-8 üzvlüyünə seçilməsinin qərara alınması heç də təsadüfi deyil, təşkilatın mahiyyətinə uyğun illərdir, həyata keçirilən məqsədyönlü xarici, daxili siyasətin, uğurlu diplomatiyanın məntiqi nəticəsidir. Bu xüsusda torpaqlarımızın otuzillik işğalı dövründə törədilən vəhşiliklər və bu vandalizmin islamofobiya yaratmaq məqsədinə, İslam dininə məxsus abidələrin məhv edilməsinə diqqəti çəkməmək mümkünsüzdür. Elə işğal zamanı 67 məsciddən 65-nin tamamilə dağıdılması faktı terrorçu Ermənistan dövlətinin necə islamofob siyasət apardığının bariz göstəricisidir. Bu fakt özlüyündə hər şeyi deyir, əlavə şərhə ehtiyac qalmır. Bəli, dünya üçün tolerantlıq nümunəsi ortaya qoyan, bütün dinlərə hörmətlə yanaşan, ayrı-ayrı xalqların milli, dini bayramlarının yüksək səviyyədə keçirilməsinə şərait yaradan ölkəmiz, təəssüf ki, uzun illər haqsız maddi-mənəvi təzyiq və təhdidlərə məruz qalıb. Ancaq təqdirəlayiq haldır ki, böyük güclərin, hegemon dövlətlərin seyirci qaldığı sözügedən məsələlər barədə Azərbaycan heç zaman çəkinməyib, daim haqlı mübarizəsini aparıb, öz qətiyyətli mövqeyini ortaya qoyub. Prezident cənab İlham Əliyev müxtəlif beynəlxalq təşkilatların tribunalarından, siyasi platformalardan, o cümlədən BMT-dən həm respublikamızın, həm də müsəlman ölkələrinin maraqlarını üstün tutub, dini ekstremizmin, islamofobiyanın aradan qaldırılmasına, İslam həmrəyliyinə çağırışlar edib. Fransanın Əlcəzair xalqına qarşı törətdiyi zorakılığı, kütləvi qəddarlığı dəfələrlə dünya siyasi gündəminə gətirən, bu soyqırımını qətiyyətlə pisləyən ölkəmizin başçısı BMT-dən sonra ikinci ən böyük təsisat sayılan Qoşulmama Hərəkatına 4 illik sədrlik dövründə, xüsusilə də pandemiya dönəmində ehtiyacı olan ölkələrə, o cümlədən də Qərbin müstəmləkə siyasətindən əziyyət çəkən, əzilən kiçik müsəlman dövlətləri üçün resursları səfərbər etmək və peyvəndlərə əlçatanlıq imkanı yaratmaq təşəbbüsləri ilə çıxış edib. Son dövrlərdə baş verən siyasi dəyişikliklərdə də respublikamız öz humanist mövqeyini, islami dəyərlərə, insani keyfiyyətlərə verdiyi önəmi ortaya qoyub. Xüsusilə də uzun illər qanlı toqquşmalara səbəb olan müsəlman ölkəsi Suriyada Bəşər Əsəd diktaturasının devrilməsinin ardından yeni hökumətin qurulması üçün Türkiyədən sonra Azərbaycanın yardım göstərməsi olduqca təqdirəlayiq addım kimi qiymətləndirildi. Ümumiyyətlə, son illərin siyasi, iqtisadi gündəliyini vərəqləsək, görərik ki, baş verən bütün təbii, qlobal dəyişikliklərdə, hüquqi-təşkilati proseslərdə, prosedurlarda ölkəmiz daim İslam həmrəyliyinə töhfəsi, müsəlman ölkələrinə dəstəyi ilə ön plana çıxır. Ölkə başçısının da dediyi kimi: ***"Biz bütün təşkilatlarda, əgər hansısa təşkilatda rəhbər vəzifəyə seçim keçirilirsə və orada müsəlman ölkəsinin nümayəndəsi varsa, mütləq avtomatik olaraq, o nümayəndəyə səsimizi veririk. Yəni bu mənim göstərişimdir və bir dəfə verilmiş göstəriş, yenə də deyirəm, avtomatik həll olunur. Biz bir çox müsəlman ölkələrinə yardımlar etmişik. Düzdür, biz bununla öyünmürük və edəndə də bunu çox da işıqlandırmırıq".***

D-8-in gələcəyi, Azərbaycan üçün önəmi ilə bağlı həm də onu vurğulamaq olar ki, bu təşkilata üzv olan ölkələrlə, xüsusilə də Türkiyə və Pakistanla dostluq münasibətləri, bütün sahələrdəki əməkdaşlığı geniş perspektivlər vəd edir. Digər tərəfdən, uzun illərdən sonra atılan bu addım yeni dünya düzəninin formalaşması prosesində təşkilatın nüfuzunun gücləndirilməsinin hədəfləndiyini göstərir. Yəni böyük ehtimalla D-8 bundan sonra da sıralarına konsensus əsasında yeni ölkələr qoşacaq və bir sıra platformalar arasında fərqlənməyə, regional, beynəlxalq əhəmiyyətini, təsirini, siyasi, iqtisadi çəkisini daha da artırmağa çalışacaq. Əminliklə demək olar ki, 44 günlük Vətən müharibəsindən ötən 5 ilə yaxın dövrdə 3 ölkə ilə strateji müttəfiqliyə imza atan, mühüm beynəlxalq təşkilatlarda söz sahibinə çevrilən, COP29 kimi mötəbər tədbirdə uğurlu nəticələr qazanan Azərbaycanın D-8-ə üzvlüyü ölkəmizin siyasi, iqtisadi mövqeyinin daha da möhkəmlənməsinə, əməkdaşlıq əlaqələrinin genişlənməsinə imkan verəcək.

✍ **Nail ƏSGƏROV**

## N.M.Vəliyevanın Naxçıvan Muxtar Respublikası Ali Məclisi Aparatının Humanitar siyasət məsələləri şöbəsinin müdiri təyin edilməsi haqqında Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin Sərəncamı

Naxçıvan Muxtar Respublikası Konstitusiyasının 5-ci maddəsinin II hissəsinin 22-ci bəndini və 30-cu maddəsini rəhbər tutaraq **qərara alıram:**

Nargilə Məharət qızı Vəliyeva Naxçıvan Muxtar Respublikası Ali Məclisi Aparatının Humanitar siyasət məsələləri şöbəsinin müdiri təyin edilsin.

**Naxçıvan Muxtar Respublikası**
**Ali Məclisi sədrinin birinci müavini** **Bəxtiyar MƏMMƏDOV**

*Naxçıvan şəhəri, 10 yanvar 2025-ci il*

## Ali Məclis sədrinin müavini, deputat Arzu Abdullayev seçiciləri ilə görüşüb



Yanvarın 14-də Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin müavini, 42 saylı Aşağı Əndəmic seçki dairəsinin deputatı Arzu Abdullayev Ordubad rayonunun Kotam kəndində seçiciləri ilə görüşüb.

Görüş zamanı vətəndaşlarla fərdi qaydada söhbət aparılıb, onların müraciət və təklifləri dinlənilib. Qaldırılan məsələlərin qanunamüvafiq qaydada həll olunması məqsədilə qeydiyyata alınaraq nəzarətə götürülüb.

Görüşdən sonra Arzu Abdullayev kəndin ağsaqqal sakinlərini ziyarət edib.

## "Ziraat Bank"ın Naxçıvan filialı fəaliyyətə başlayıb






Yanvarın 15-də "Ziraat Bank Azərbaycan" ASC-nin Naxçıvan filialı istifadəyə verilib.

Tədbirdə dövlət və hökumət rəsmiləri, Türkiyə Cümhuriyyətinin Naxçıvan Muxtar Respublikasındakı Baş konsulu, konsulluğun əməkdaşları, iş adamları və ictimaiyyət nümayəndələri iştirak ediblər.

Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəliyinin əməkdaşı Günay Nəzərova, Türkiyə Cümhuriyyətinin Naxçıvan Muxtar Respublikasındakı Baş konsulu Asip Kaya, "Ziraat Bank Azərbaycan" ASC-nin İdarə Heyətinin sədri Selçuk Demir və Naxçıvan Muxtar Respublikası iqtisadiyyat nazirinin müavini, nazir vəzifələrini icra edən Abbas İsmayılov Türkiyənin ən böyük banklarından olan "Ziraat Bank"ın Azərbaycanda 10-cu filialının Naxçıvanda istifadəyə verilməsini mühüm yenilik kimi dəyərləndirib, hər kəsi bu münasibətlə təbrik ediblər. Çıxışlarda "Ziraat Bank"ın Naxçıvan iqtisadiyyatının inkişafına töhfə verəcəyi və sahibkarlıq üçün yeni üfüqlərin açılacağı ifadə olunub.

Sonra filialda yaradılan şərait və göstərilən xidmətlərlə tanışlıq zamanı məlumat verilib ki, "Ziraat Bank Azərbaycan" 160 illik tarixə malik olan və dünyanın 19 ölkəsində fəaliyyət göstərən "Ziraat" Maliyyə Qrupunun üzvü olaraq geniş müxbir əlaqələrinə malikdir. Burada müştərilərə beynəlxalq ticarətdə istifadə edilən ən müasir bank məhsulları və xidmətləri təqdim edilir. Dünyanın ən qabaqcıl bankları ilə partnyor əlaqələri mövcud olan bank ölkəmizdə istehsalın hər sahəsində müştərilərə kredit və xüsusi faiz dərəcələri təklif edir. Filialda sahibkarlığın inkişafı, xüsusilə də kənd təsərrüfatı sahəsində fəaliyyət göstərən sahibkarlara dəstək məqsədilə xüsusi şərtlər təqdim ediləcək.

Tədbir çərçivəsində Naxçıvan Muxtar Respublikası Sahibkarlığın İnkişafı Fondu ilə "Ziraat Bank Azərbaycan" ASC arasında əməkdaşlıq müqaviləsi imzalanıb. Müqaviləyə əsasən tərəflər güzəştli kreditlərlə sahibkarlara maliyyələşdirmə imkanları yaradılmasına birgə dəstək olacaqlar.

# Muxtariyyət tarixində ədliyyənin yeri




*Naxçıvan diyarı Azərbaycanın çoxəsrlik tarixində layiqli yer tutmuş, ictimai-siyasi, elmi-mədəni həyatında özünəməxsus rol oynamış, İslam sivilizasiyasının mühüm elm, mədəniyyət və sənətkarlıq mərkəzlərindən biri kimi geniş şöhrət tapmışdır.*

*Bütün bunları nəzərə alan Prezident cənab İlham Əliyev "Naxçıvan Muxtar Respublikasının 100 illik yubileyinin qeyd edilməsi haqqında" 2023-cü il 30 dekabr tarixdə Sərəncam imzalamışdır ki, bu da qədim diyarın zəngin dövlətçilik tarixində, ölkəmizin inkişafında mühüm yer tutduğunun göstəricisidir.*

**Ədliyyənin Xalq Cümhuriyyətindəki təməli**

Azərbaycan Xalq Cümhuriyyəti yarandığı gündən Naxçıvan diyarının əhalisi özünün bu respublika ilə birləşməyə hazır olduğunu bildirsə də, yaranmış siyasi və beynəlxalq vəziyyət xalqın arzusunu həyata keçirməyə imkan verməmişdir. Naxçıvan Müsəlman Milli Komitəsinin sədri Mirzə Nəsrulla bəyin başçılığı ilə Naxçıvan əhalisi diyarın təhlükəsizliyi uğrunda mübarizə aparırdı.

Tarixi faktlar göstərir ki, Azərbaycan Xalq Cümhuriyyəti yarandığı gündən insan hüquq və azadlıqlarının müdafiəsi istiqamətində qətiyyətli addımlar atmış, milli dövlət quruculuğunu ədalətə və qanunçuluğa tapınaraq reallaşdırmışdır. Azərbaycan ədliyyəsinin şanlı tarixi 1918-ci il mayın 28-də, Azərbaycan Xalq Cümhuriyyətinin elan edildiyi gündə başlamışdır. Eyni zamanda həmin gündə Ədliyyə Nazirliyi təsis edilmiş və təcrübəli dövlət xadimi Xəlil bəy Xasməmmədov ilk ədliyyə naziri təyin olunmuşdur. Həmin il noyabrın 22-də nazirliyin Əsasnaməsi təsdiq edilmiş və səlahiyyətləri müəyyən edilmişdir.

Həmin dövrdə nazirlik tərəfindən bir sıra mühüm qanun layihələri, məhkəmə və istintaq fəaliyyəti, amnistiyanın elan edilməsi, vətəndaşlıq barədə, habelə ictimai və dövlət əhəmiyyətli digər layihələr hazırlanaraq parlamentin müzakirəsinə çıxarılmışdır. Həbsxana işinin demokratik norma və prinsiplərə uyğun qurulması məqsədilə 1919-cu ildə penitensiar xidmət Daxili İşlər Nazirliyinin tabeliyindən çıxarılaraq Ədliyyə Nazirliyinə verilmişdir.

**Naxçıvanda ilk ədliyyə sisteminin yaradılması**

1918-ci ilin ortalarında Naxçıvan Osmanlı ordusunun nəzarətində idi və həmin dövrdə Osmanlı ordusunun ikinci alay komandiri Sürəyya bəy Naxçıvana qəza rəisi təyin edilmişdi. Bura gələn Sürəyya bəy əhalinin nümayəndələri ilə keçirdiyi yığıncaqdakı çıxışında Milli Komitənin ləğv edildiyini, yerində jandarm və bələdiyyə idarələri ilə yanaşı, ədliyyə idarəsinin də yaradıldığını bəyan etmişdir.

1918-ci ilin noyabrında Araz-Türk Cümhuriyyəti yaradıldıqda onun hökumət rəisliyinə Əmir bəy Nərimanbəyov və ədliyyə naziri vəzifəsinə Məmməd bəy Bəyzadə təyin edilmişdi.

1919-cu ilin yanvar-fevralında İrəvan Quberniyası Müsəlmanlarının Həmyerlilər Cəmiyyətinin bölgəyə göndərdiyi Mirabbas Mirbağırov vəziyyətlə tanış olmuş və AXC hökumətinə bir sıra təkliflər vermişdi. Təkliflər içərisində "Mülki və məhkəmə idarələrinin rəhbərliyinə baş məmurlar azərbaycanlılar təyin edilməlidirlər" təklifi də mühüm yer tutmuşdur.

**Sovetlər dönəmində ədliyyə sistemi**

Azərbaycan Xalq Cümhuriyyəti süqut etdikdən sonra İnqilab Komitəsinin 13 may 1920-ci il tarixli qərarı ilə Ədliyyə Nazirliyi ləğv edilmiş, Xalq Ədliyyə Komissarlığı (XƏK) yaradılmışdır. İlk ədliyyə komissarı Əliheydər Qarayev, 1920-ci ilin iyununda isə Behbud ağa Şahtaxtinski təyin edilmişdir. XƏK-in səlahiyyətinə qanunvericilik layihələrinin hazırlanması, məhkəmə işçilərinin seçilməsi, təlimatlandırılması və onlara inzibati rəhbərlik edilməsi, qanunçuluğa ali nəzarət və istintaqın aparılması daxil edilmişdir. Lakin 1930-cu ildə bu komissarlıq ləğv edilərək onun funksiyaları prokurorluq, Ali Məhkəmə, Mərkəzi İcraiyyə Komitəsinə və digər orqanlara verilmişdir.

1920-ci il iyulun 28-də Naxçıvan sovetləşdirildi və İnqilab Komitəsi yaradıldı. Naxçıvan İnqilab Komitəsinin 10 oktyabr 1920-ci il tarixli iclasında digər şöbələrlə yanaşı, ədliyyə şöbəsi də yaradıldı. Köhnə məhkəmələr ləğv edilmiş, yerinə xalq məhkəmələri qurulmuşdu. Məhkəmələrin fəaliyyətinə ilk dövrlər Naxçıvan İnqilab Komitəsi nəzarət etmiş, 4 aprel 1921-ci ildə Naxçıvan SSR Xalq Ədliyyə Komissarlığı yaradıldıqdan sonra həmin qurum tərəfindən həyata keçirilmişdir. Naxçıvan SSR Xalq Ədliyyə Komissarlığı başda olmaqla ədliyyə şöbələri cinayət və mülki işlərə düzgün baxılmasına, ibtidai istintaqın düzgün aparılmasına nəzarət edirdi.

O dövrün Naxçıvanında ədliyyə orqanı isə 1924-cü il yanvarın 18-də yaradılmışdır. Həmin qurum Xalq Ədliyyə Komissarlığı adı ilə sovetlər birliyinin mahiyyətinə xas olan strukturu ilə 1946-cı ilə qədər fəaliyyət göstərmişdir. Ölkə ərazisində olduğu kimi, muxtar respublikada da ədliyyə sistemi dəfələrlə ləğv edilmiş, yenidən yaradılmış və səlahiyyətləri başqa orqanlara həvalə edilmişdir. 1946-cı ildə Naxçıvan Ədliyyə Komissarlığı ləğv edilərək Ədliyyə Nazirliyi adlandırılmışdır. 1956-cı ildə nazirlik yenə də ləğv edilmiş, səlahiyyətləri digər orqanlara verilmişdir.

**Heydər Əliyev və ədliyyə sisteminin inkişafı**

Ümummilli Lider Heydər Əliyevin Azərbaycana rəhbərliyi dövründə başqa sahələrdə olduğu kimi, ədliyyə sistemində də əsaslı islahatlar həyata keçirilmişdir. Belə ki, 27 oktyabr 1970-ci ildə Azərbaycan SSR Ədliyyə Nazirliyi və 5 may 1971-ci ildə Naxçıvan MSSR Ədliyyə Nazirliyi yenidən təsis olunmuşdur. Bununla da Azərbaycan ədliyyə tarixində yeni mərhələ başlanmışdır. Ədliyyə Nazirliyi sabit fəaliyyət göstərərək məhkəmə orqanlarına təşkilati rəhbərliyi həyata keçirmiş, əhaliyə hüquqi yardımı yaxşılaşdırmış, notariat fəaliyyətinin və məhkəmə ekspertizalarının aparılmasını təmin etmişdir.

1991-ci ildə Azərbaycan dövlət müstəqilliyini yenidən bərpa etdikdən sonra bütün sahələrdə olduğu kimi, ədliyyə sahəsində də müəyyən çətinliklər yarandı. Lakin 1993-cü ildə ikinci dəfə siyasi hakimiyyətə gələn Ulu Öndər Heydər Əliyevin rəhbərliyi ilə ədliyyə sisteminin inkişafını təmin edən ardıcıl və məqsədyönlü islahatların həyata keçirilməsi nazirliyin səlahiyyətlərini genişləndirmiş, cəmiyyətdə rolunu artırmışdır.

1995-ci ildə Ümummilli Liderin təşəbbüsü və rəhbərliyi ilə hazırlanaraq qəbul edilmiş Azərbaycan Respublikasının ilk milli Konstitusiyası demokratik quruluşun və hüquqi dövlətin möhkəm təməlini qoymuşdur. Ulu Öndərin rəhbərliyi ilə Azərbaycanda Konstitusiyamıza əsaslanan təkmil qanunvericilik bazası formalaşdırılmış və hüquq təsisatlarının səmərəli fəaliyyətinə nail olunmuşdur. Bir sıra sahələrlə yanaşı, ədliyyə orqanlarının fəaliyyətinin keyfiyyətcə yeni dövrün tələbləri ilə təkmilləşdirilməsi istiqamətində də kompleks islahatlar həyata keçirilmişdir.

Ölkə ədliyyəsi beynəlxalq norma və prinsiplərə uyğun olan yeni inkişaf yoluna qədəm qoymuş, onun çoxşaxəli fəaliyyətinin tənzimlənməsi üçün onlarla normativ-hüquqi sənəd qəbul edilmişdir. Aparılmış islahatların davamı olaraq Ulu Öndərin ədliyyə sahəsinə göstərdiyi böyük qayğının təzahürü kimi 2000-ci il 11 noyabrda imzaladığı Sərəncamla Ədliyyə Nazirliyinin ilk Əsasnaməsinin təsdiq edildiyi gün – 22 noyabr "Ədliyyə işçilərinin peşə bayramı günü" kimi təsis edilmişdir.

Bununla yanaşı, muxtar respublikada da ədliyyə orqanlarının inkişafına böyük diqqət yetirən Ulu Öndər Heydər Əliyev "Azərbaycan Respublikası Prezidentinin bəzi fərmanlarına dəyişikliklər və əlavələr edilməsi barədə" 2002-ci il 24 avqust tarixli Fərmanı ilə Naxçıvan Muxtar Respublikası Ədliyyə Nazirliyinə notariat, vətəndaşlıq vəziyyəti aktlarının dövlət qeydiyyatı, məhkəmə icraçıları və məhkəmə nəzarətçiləri, cəzaların icrası, normativ aktların dövlət qeydiyyatı, müvafiq məhkəmələrin maliyyə, maddi-texniki təminatlarının həyata keçirilməsi və digər sahələr üzrə əlavə səlahiyyətlər verildi. Bu fərmanın qəbulundan sonra nazirliyin aparatının yeni strukturu təsdiq edildi. Görülmüş tədbirlər nəticəsində ölkə ədliyyəsi beynəlxalq norma və prinsiplərə uyğun olan yeni inkişaf yoluna qədəm qoymuş, onun çoxşaxəli fəaliyyətinin tənzimlənməsi üçün onlarla normativ-hüquqi sənəd qəbul edilmişdir. Həyata keçirilən islahatlar çərçivəsində ədliyyə işinin müasir tələblər səviyyəsində qurulması üçün əsaslı tədbirlər görülmüş, Ədliyyə Nazirliyinin üzərinə mühüm vəzifələr qoyulmuşdur.

**Müstəqil Azərbaycanın ən müasir ədliyyə sistemi**

Ümummilli Liderin müəyyənləşdirdiyi hərtərəfli inkişaf kursu Prezident cənab İlham Əliyev tərəfindən uğurla həyata keçirilməkdədir. Demək olar ki, bütün sahələrdə, o cümlədən ədliyyə və məhkəmə-hüquq sistemində də mühüm nailiyyətlər əldə olunub. Belə ki, müstəqillik dövründə ilk dəfə olaraq dövlət başçısının 2006-cı il 18 aprel tarixli Fərmanı ilə Ədliyyə Nazirliyi haqqında Əsasnamə təsdiq edilərək ona hüquq-mühafizə orqanı statusu verilmişdir. 25 aprel 2006-cı ildə isə "Naxçıvan Muxtar Respublikası Ədliyyə Nazirliyi haqqında Əsasnamə" təsdiq edilmişdir. Əsasnamənin təsdiqi ilə nazirliyin fəaliyyət istiqamətləri, hüquq və vəzifələri müəyyənləşdirilmişdir.

Qeyd edək ki, Azərbaycan Respublikası Prezidentinin 2009-cu il 6 fevral tarixli Fərmanı ilə təsdiqlənmiş "Azərbaycan ədliyyəsinin inkişafına dair 2009-2013-cü illər üçün Dövlət Proqramı" isə milli ədliyyə sisteminin müasirləşdirilməsi və fəaliyyətinin təkmilləşdirilməsi istiqamətində reallaşdırılmış məqsədyönlü tədbirlər sisteminin uğurlu davamı olmuşdur. Proqramla ədliyyə sahəsində islahatlar, bu sahədə inkişafın təmin edilməsi, ədliyyə sistemində yeni informasiya-kommunikasiya texnologiyalarının tətbiqi işinin sürətləndirilməsi, müasir tələblərə cavab verən yeni iş prosesinin təşkili, cəzaçəkmə müəssisələrinin fəaliyyətinin müasirləşdirilməsi, vətəndaşların ədliyyə orqanlarına müraciət imkanlarının genişləndirilməsi və digər mühüm hədəflər uğurla reallaşdırılmışdır. Onu da qeyd etmək lazımdır ki, dövlətimizin başçısının "Məhkəmə-hüquq sistemində islahatların dərinləşdirilməsi haqqında" 2019-cu il 3 aprel tarixli Fərmanı ədliyyə sistemində islahatlar üçün də "yol xəritəsi" rolunu oynayaraq ədliyyə orqanlarının fəaliyyətində müəyyən yeniliklərə hüquqi zəmin yaratmışdır.

"Elektron hökumət" sisteminin fəal iştirakçısı olan Ədliyyə Nazirliyi tərəfindən vətəndaşlara fəaliyyət sahəsinə uyğun elektron xidmətlər göstərilir. Son illərdə reallaşdırılmış "Elektron notariat", "Elektron icra", "Mobil notariat", habelə məsafədən ədliyyə xidmətlərini təmin edən innovativ layihələr mövcud istiqamətdəki keyfiyyətin və operativliyin yüksəldilməsinin bariz nümunəsidir. Qeyd olunanlarla yanaşı, tətbiq olunan "Elektron məhkəmə" sistemi də ədalət mühakiməsinin daha səmərəli həyata keçirilməsinə, şəffaflığın təmin olunmasına, çevikliyin artırılmasına və vətəndaş məmnunluğuna xidmət edir.

*(ardı var)*

**Hüseyn SƏFƏROV**
***Naxçıvan Muxtar Respublikasının ədliyyə naziri vəzifəsini icra edən, nazir müavini***



# Zəngəzur dəhlizinin gələcək turizm və logistika perspektivləri

Cənubi Qafqazda bütün geostrateji reallıqları dəyişdirmiş 44 günlük Vətən müharibəsi bu coğrafiyada Ermənistanın təcavüzkar hərəkətləri ucbatından iflic vəziyyətinə düşmüş turizm, nəqliyyat və logistika əlaqələrinin inkişafına 30 ildən artıq müddətdən sonra yeni perspektivlər qazandırmışdır. Təkcə Naxçıvanı ondan ayrı düşdüyü Azərbaycanın əsas hissəsi ilə deyil, bütün Türk dünyasını bir-birinə bağlayacaq olan Zəngəzur dəhlizi, bu mənada, gələcəyin ümid körpüsü kimi də mürəkkəb dünyanın gözünü dikəcəyi qapı, mühüm iqtisadi-mədəni əlaqələrin arteriyası olacaq. Belə ki, dəhliz boyunca ölkələrin turizm ehtiyatları, mövcud və yaradılacaq nəqliyyat-logistika imkanları artıq araşdırmaçıların və investorların diqqət mərkəzindədir.

İlk baxışda “Zəngəzur dəhlizi” ifadəsinin siyasət leksikonuna II Qarabağ müharibəsindən sonra daxil olduğu düşünülsə də, əslində, bu mühüm geostrateji məkanın kifayət qədər qədimə dayanan tarixi-coğrafi arxa zəmini vardır. Belə ki, hələ 200 il əvvəl, Araz çayı sərhəd olmayandan qabaq da bu bölgənin sahibi olan azərbaycanlılar və eləcə də qədim İpək Yolu marşrutu üzərində hərəkət edənlər sərt Zəngəzur dağlarını aşmaq üçün Araz çayı boyunca Arazdəyəndən Culfaya, oradan Ordubad, Mehri, daha sonra Xudafərinə doğru, ya da ki, Batabat yaylağından keçməklə Qarakilsə-Gorus-Laçın yolu ilə Qarabağa getmək üçün istifadə edərmişlər. Burada mövcud olmuş əsas lokomotiv güc isə həmin güzərgahlar üzərində iqlimin nisbətən mülayim və təbii şərtlərin də təhlükəsiz olması idi. Beləcə, yüzillər boyunca Anadoludan Naxçıvana, oradan da Qarabağ, Muğan çölləri və Xəzərin cənubundan keçməklə Orta Asiyaya doğru səyahət etmək istəyən insanlar üçün Zəngəzurun adı çox cazibədar olub. Bu cazibə özünü bu torpaqlarda yaşamış insanların qədim mədəniyyətində, qonaqpərvərliyində də büruzə vermişdi.

Tarixi ədalətsizlik nəticəsində hazırda Zəngəzurun böyük bir hissəsi, yəni Qərbi Zəngəzura aid 4 rayon Azərbaycandan ayrı düşsə də, coğrafi bir bütün kimi bu torpaqlar özünün əsl sahibinə olan bağlılığını hər qarışında yaşatmaqdadır. Baxmayaraq ki, hazırda geostrateji maraqların kəsişməsindəki Cənubi Qafqazın Qərbi Zəngəzur mahalı mühüm düyün nöqtəsi kimi təkcə region ölkələrinin deyil, eləcə də bir neçə min kilometrlərlə uzaqdakı dövlətlərin də diqqət mərkəzindədir, ancaq burada Azərbaycanın varlığı olmadan heç bir ideyanın ortaya atılması mümkün deyildir. Belə ki, hazırkı qlobal güc mərkəzlərinin həm top-tüfəng, həm də qol savaşı dövründə Çin Orta Dəhlizinin daha qısa və sərfəli qanadı kimi Zəngəzur dəhlizinə Avropaya etibarlı və sərfəli çıxış yolu kimi baxsa da, ABŞ Azərbaycanın bu bölgədəki hakim mövqeyindən faydalanmaqla özünün Orta Asiyada və Əfqanıstandakı zəif mövqelərini möhkəmlətmək hədəfi güdür. Eləcə də Rusiyanın öz ölkəsinin ərazisi ilə müqayisədə çox kiçik görünən bu dəhliz üzərindəki maraqları da Avropada zəifləmiş mövqelərini ABŞ-nin daha az təsir dairəsində olan üçüncü ölkə İran və oradan da Hindistan vasitəsilə möhkəmlətmək üzərində olması ilə izah oluna bilər. İstənilən halda burada təkbaşına olaraq Ermənistanın yox dəyərində bir təsirini və bu ölkənin onunla heç bir ortaq sərhədi, yaxud milli və ya etnik bənzərliyi olmayan Fransanın kuklasına çevrildiyini nəzərə alsaq, burada Zəngəzur dəhlizi üzərində maraqlar nisbətinin Azərbaycanın başında olduğu Türk dünyası və böyük dövlətlərin ticari və strateji maraqları üzərində qurulduğunu ifadə edə bilərik. Ona görə də, bu dəhlizin açılması məsələsində son dərəcə qərarlı olan dövlət başçımız cənab İlham Əliyev də çıxışlarında dəfələrlə vurğuladığı kimi: ***“Zəngəzur dəhlizi Azərbaycanın maraqlarına tam cavab verir və bu dəhliz mütləq açılacaqdır!”***

Zəngəzur dəhlizinin geostrateji əhəmiyyəti ilə yanaşı, onun gələcək perspektivləri arasında, şübhəsiz, turizm və logistika əhəmiyyətini, xüsusilə qeyd etmək lazımdır. Belə ki, tarixi abidələr və təbiət gözəllikləri ilə zəngin olan Qərbi Zəngəzurun turizm ehtiyatlarına, xüsusilə qədim yurd yerlərimizə, toponimlərə olan maraq gələcəkdə buraya səyahət edəcək azərbaycanlılar üçün indidən cazibə elementləri yaradır. Hazırda Araz çayı boyunca populyar nostalji turizmə olan marağı nəzərə aldıqda gələcəkdə Qərbi Zəngəzura, öz doğma ata-baba torpaqlarına yenidən qovuşmaq istəyi ilə yaşayan, əslən Qərbi Azərbaycandan olan vətəndaşların bu torpaqlara səyahətləri həm turizm, həm də regional sülh baxımından ciddi arqument kimi səslənir. Dünyada heç bir müharibənin əbədi olmadığını nəzərə aldıqda dövlət başçımızın da vurğuladığı kimi kənar qüvvələrin Cənubi Qafqazı rahat buraxdığı zaman bu regionun da davamlı sülhə qovuşacağına inanmaq gözlənilən reallıqdır.

Təəssüf ki, turizm və humanitar inkişafdan hələ ki xeyli uzaqda olan Ermənistan isə cənub və şimal qonşuları ilə birgə Zəngəzur dəhlizinin onlara necə güc qazandıracağını, bu gücün gələcəkdə yeni bir silahlanma və münaqişə gərginliyi məqsədilə istifadəsi üçün baş sındırmaqdadır. Halbuki Batabat aşırımından başlayaraq Qarakilsə-Gorus-Laçın yolu ilə Ermənistanın, əslində, coğrafi olaraq da iki yerə ayrıldığını, Araz sərhədindən başlayaraq Mehri-Qafan-Gorus yolunun mühüm bir hissəsinin Qubadlıdan keçdiyini nəzərə alsaq, 10 noyabr 2020-ci il tarixli Bəyannamədə də qeyd olunduğu kimi ermənilərin başlatmış olduğu münaqişə nəticəsində bloklanmış bütün kommunikasiyaların gələcəkdə açılmasının, əslində, bu ölkə üçün daha həyati əhəmiyyətli olduğunu deyə bilərik. Belə ki, qeyd etdiyimiz kimi, Qərbi Zəngəzurun Qarakilsə ərazisinin mürəkkəb relyefi burada Ermənistanın cənubu ilə şimalı arasında irihəcmli yüklərin daşınması üçün əlverişli deyildir. Buna görə də hələ sovet dövründə Bakı-İrəvan arasındakı dəmir yolu xətti ilə daşınan yüklərin 85 faizə qədərinin məhz qonşu ölkə üçün ünvanlandığını qeyd etsək, bədnam erməni separatizminin ölkəmizə vurduğu iqtisadi zərərlərin və Naxçıvanın 30 ildən artıq blokadasının fəsadlarından daha çoxunun elə özlərinə də dəydiyini sadə erməni vətəndaşı öz düşük həyat səviyyəsində daha açıq hiss edir. Özünün əsas enerji, sənaye, nəqliyyat və kommunikasiya sahələri qonşu ölkələrin mülkiyyətinə düşmüş, regional layihələrdən uzaq qalan Ermənistan üçün bu, əslində, tarixin acı bir dərsi də olmalıdır.

Hay məmləkətinin isə bu dərslərdən və eləcə də müharibədəki acı məğlubiyyətdən nə dərəcədə dərs çıxaracağını zaman göstərəcək. Amma reallıq odur ki, bu gün Cənubi Qafqazda, hələ bir də Zəngəzur bölgəsində Azərbaycanın maraqlarına uyğun olmayan heç bir layihə gerçəkləşə bilməz. Dünyada, xüsusilə Yaxın Şərq və Ukrayna münaqişə bölgələrindəki risklərin artması fonunda Naxçıvanı Azərbaycanın əsas hissəsinə və böyük Türk dünyasını bir-birinə birləşdirəcək Zəngəzur dəhlizinin turizm və logistika əhəmiyyəti daha da artdıqca onun açılmasının bütün region ölkələri üçün də faydalı olacağını qeyd edə bilərik. Məhz bu maraqları əsas tutan Prezident cənab İlham Əliyev Zəngəzur dəhlizinin açılmasını qarşıya məqsəd qoymuş, Naxçıvana birbaşa əlaqənin yaradılması üçün dövlətimizin bütün gücünü ortaya çıxaracağını bəyan etmişdir.

✍ **Əli CABBAROV**



# Naxçıvan Muxtar Respublikası Prokurorluğunun geniş kollegiya iclası keçirilib





Yanvarın 13-də Azərbaycan Respublikasının Baş prokuroru, I dərəcəli dövlət ədliyyə müşaviri Kamran Əliyevin rəhbərliyi ilə Naxçıvan Muxtar Respublikası, Naxçıvan şəhər və digər tabe rayon prokurorluqlarının əməkdaşlarının iştirakı ilə videoformat rejimində 2024-cü il ərzində cinayətkarlığa qarşı mübarizə, ədalət mühakiməsinin həyata keçirilməsində iştirak, qanunların icra və tətbiq olunmasına nəzarət, cinayət mühakimə və cinayət təqibindən kənar icraatlarda insan hüquq və azadlıqlarının müdafiəsi və qanunla müəyyən edilmiş digər sahələrdə görülmüş işlərin vəziyyəti və qarşıda duran vəzifələrin müzakirəsinə həsr olunmuş geniş kollegiya iclası keçirilmişdir.

Giriş nitqi ilə çıxış edən Baş prokuror Kamran Əliyev qeyd edib ki, müstəqil, qüdrətli Azərbaycan dövlətinin varlığı Ümummilli Lider Heydər Əliyevin adı ilə bağlıdır. Məhz onun uzaqgörən siyasətinin, vaxtında və qətiyyətlə atmış olduğu hər bir addımının bəhrəsinin bu gün bütün Azərbaycan xalqı, o cümlədən bizlər şahidi oluruq. Naxçıvan Muxtar Respublikasının bugünkü inkişafının əsasının Ulu Öndər Heydər Əliyev tərəfindən qoyulduğu, xüsusilə vurğulanıb.

Ulu Öndər Heydər Əliyevin siyasətini uğurla davam etdirən Prezident cənab İlham Əliyev və Birinci vitse-prezident Mehriban xanım Əliyeva tərəfindən Naxçıvan Muxtar Respublikasının hərtərəfli, o cümlədən iqtisadi-sosial inkişafı, insanların yüksək səviyyədə rifahının təmin edilməsi istiqamətində mühüm islahatlar aparılmış və bu hazırda da davam etdirilməkdədir.

Çıxışda, həmçinin qeyd edilib ki, yola saldığımız 2024-cü il tarixi və əlamətdar hadisələrlə zəngin bir il olub. Ölkəmizin tarixində ilk dəfə olaraq suveren ərazilərimizdə 2024-cü il 7 fevral tarixdə keçirilmiş növbədənkənar Azərbaycan Respublikası Prezidentinin seçkilərində İlham Əliyev seçicilərin 92,12 faiz səsini qazanaraq Azərbaycan Respublikasının Prezidenti seçilmişdir.

Ötən ilin digər əlamətdar hadisələrindən biri isə Azərbaycan Respublikası Prezidentinin 2024-cü il 28 iyun tarixli Sərəncamı ilə 2024-cü il 1 sentyabr tarixdə Azərbaycan Respublikasının Milli Məclisinə növbədənkənar seçkilərin keçirilməsi olmuşdur.

2024-cü ilin prokurorluq orqanları üçün də əlamətdar il olduğu konkret misallarla qeyd edilmişdir.

Daha sonra hesabat məruzəsi ilə çıxış edən Naxçıvan Muxtar Respublikası prokuroru Sənan Paşayev fəaliyyət istiqamətləri üzrə görülən işlərə və statistik göstəricilərə istinad etməklə hesabat dövründə muxtar respublikada kriminogen durumun nəzarətdə saxlanıldığını, daxili işlər, dövlət təhlükəsizliyi və digər hüquq-mühafizə orqanları ilə əlaqəli şəkildə ölkəmizdə ictimai-siyasi sabitliyin qorunduğunu, cinayətkarlığa qarşı mübarizənin gücləndirilməsi sahəsində zəruri tədbirlərin göründüyünü qeyd edib. Bildirilmişdir ki, 2024-cü il ərzində Naxçıvan Muxtar Respublikasının prokurorluq orqanlarında 37 cinayət işinin ibtidai istintaqı aparılmış və həmin cinayət işlərindən 13-nün istintaqı tamamlanaraq baxılması üçün aidiyyəti üzrə məhkəmələrə göndərilmiş, habelə hesabat dövründə prokurorluq orqanları tərəfindən istintaq edilmiş cinayət işləri üzrə müəyyən edilmiş 376 667 manat maddi ziyandan 367 302 manatının (97,51 faiz) ödənilməsi təmin olunmuşdur. Bundan əlavə, 2024-cü ildə Naxçıvan Muxtar Respublikası prokurorluğu orqanlarına 584 müraciət daxil olmuş, həmçinin Naxçıvan Muxtar Respublikası Prokurorluğunda 197, tabe rayon (şəhər) prokurorluqlarında isə 391 olmaqla, ümumilikdə, 588 vətəndaş qəbul edilərək dinlənilmiş, müraciətlərinə müvafiq olaraq izahların verilməsi və onların həlli istiqamətində müvafiq tədbirlərin icrası həyata keçirilmişdir.

Kollegiya iclasında görülmüş işlərin vəziyyəti və qarşıda duran vəzifələrin icrasına toxunulmaqla əldə olunan uğurlar, habelə xidməti fəaliyyət zamanı yol verilmiş nöqsanlar ətraflı müzakirə edilib.

Geniş kollegiya iclasına yekun vuran Kamran Əliyev xidməti fəaliyyətin təkmilləşdirilməsi, hesabat dövründə yol verilmiş nöqsanların aradan qaldırılması, həmçinin Azərbaycan Respublikası Prezidentinin 2024-cü il 28 dekabr tarixli Sərəncamı əsasında Azərbaycan Respublikasında 2025-ci ilin “Konstitusiya və Suverenlik İli” elan edilməsi ilə bağlı zəruri tapşırıqlar verib.

Sonda muxtar respublikanın prokurorluq orqanlarının hər bir əməkdaşının gələcək fəaliyyətləri zamanı qanunla üzərlərinə qoyulmuş vəzifələrin icrası istiqamətində öz bilik və bacarıqlarını bütünlüklə səfərbər edəcəklərinə, dövlətimizin və xalqımızın mənafeyi uğrunda xidməti öhdəliklərini layiqincə yerinə yetirəcəklərinə əminliyini ifadə edərək, onlara uğurlar arzu edib.




## Naxçıvanın ilk və tək qazi qadını



1990-cı ilin soyuq yanvar günlərindən birində görmüşdüm ilk dəfə onu.Təcili yardım maşınından enəndə üst-başı qan içində idi. Həmin gün ilk dəfə eşitmişdim "şəhid" kəlməsini. "Yaralılara kömək edin, şəhidlərimiz var", – deyirdi qarşısındakı tibb işçilərinə. Həmin gün öyrəndim onun Nəzifə adlı tibb bacısı olduğunu. Sədərəkdə gedən döyüşlərdə bir əlində silah, digərində yardım çantası ilə döyüşdüyünü. Evdə də tez-tez söhbəti açılırdı onun. Hamı necə qoçaq, qeyrətli olduğundan danışardı. Altı körpəsinin atasının erməni quldurlarının yetirdiyi xəsarət ucbatından dünyadan köçdüyünü deyirdilər. Elə həmin günlərdən Nəzifə əlinə silah alıb, səngərdə erməni quldurları ilə döyüşən oğullara bacı olub.

Sonrakı illərdə onunla yaxından tanış oldum. Öyrəndim ki, iki dəfə yaralanıb. Amma sağalan kimi yenə döyüşə qayıdıb. Bu günlərdə yenə evinə qonaq getdim Nəzifə ananın. Naxçıvanın ilk və tək qadın qazisi olan Nəzifə Qaybalıyevanı görmək məni də həmin illərə qaytarır. Hərbi forma əynində döyüşdüyü illər, qan-tər içində yaralıları xəstəxanaya çatdırdığı günlər gözlərim önünə gəldi.

Xatirələrə daldı yenə. Fotoalbomu qarşısına qoyub bir-bir göstərdi döyüş yoldaşlarını: "Bax, Məhərrəm Seyidovdur, polis kapitanı, Naxçıvanın ilk şəhidi, Azərbaycanın ilk Milli Qəhrəmanlarından biridir, Abbasəlinin fotosudur, özüm çıxardım döyüş meydanından onu", – deyir. Həmin günlərdən danışır:

"Yanvarın 18-də Şərur qərargahına gələn xəbər hamını həyəcanlandırdı. Avtomat və beşaçılanlarla silahlanmış bir qrup erməni dəmir yolu, Koroğlu bulağı və şərab zavodu istiqamətindən Sədərəyə hücum etməyə başlamışdı. 10 saat davam edən ölüm-dirim mübarizəsində müdafiəçilərin bir amalı var idi: Sədərək qorunmalıdır. Ermənilər Sədərəyə ancaq bizim meyitimizin üzərindən keçib gedə bilərlər. 10-15 polis işçisi və döyüş təcrübəsi çox az olan könüllünün ancaq ov silahı ilə müasir silahlara sahib yüzlərlə hərbçinin hücumunu dəf etməsi möcüzəyə bənzəyirdi. Səngərdə bir igid şəhid olurdusa, beş igid silah götürüb, Vətəni müdafiə etməyə tələsirdi. 77 könüllü Vətən oğlunun tək bacısı mən idim.

Yanvarın 19-u səhərə yaxın atəş səsləri bir az azalmağa başlasa da, aradan heç 4 saat keçməmiş Sədərəyə yenidən və daha şiddətli hücum oldu. Kənd və Şərur rayon mərkəzi bu dəfə raket, top və digər ağır silahlardan atəşə tutuldu. Gecəyarıya kimi susmadılar. Yaralılar neytral zonada qalmışdılar. Düşmənin susmayan silahları yaralıları götürməyimizə imkan vermirdi. Qarın üzərində sürünə-sürünə birtəhər özümüzü yaralılara yetirdik. Şərur Rayon Mərkəzi Xəstəxanasına çatdırmağa çalışdığımız yaralılardan kimi elə yoldaca şəhadətə yüksəldi, kimisi isə əməliyyata götürüldü. Dörd il, beləcə, döyüşdük mənfur düşmənlə, gün oldu ac qaldı döyüşçülər, gün oldu yaralı vəziyyətdə döyüşdülər, amma düşmənə aman vermədilər. Ulu Öndərin "Qeyrət qalası" adlandırdığı Sədərək igid oğulların canı bahasına qorundu. Həmin illərdə Vətən oğlu ilə dəfələrlə görüşdük. Onun yanımızda olması səngərdəki hər kəsə güc verirdi. Şiddətli döyüşlərdə, soyuq günlərdə belə heç kim səngəri tərk etmədi. İndi keçmiş günləri xatırlayanda çox təəssüf edirəm, yaralanıb səngərdən ayrı durmaq məcburiyyətində qaldığıma görə. 1992-ci ilin mayında bir yaz səhəri. Sədərəyin düşmən mərmilərinin səsindən yenidən lərzəyə gəldiyi günlərdən birində mən də ağır yaralandım. Döyüş meydanından ayrılanda yaralanmağımdan çox oradakı qardaşlarıma əlim çatmayacaq deyə məyus olmuşdum.

İndi həmin günlərdən bizi 35 illik zaman kəsiyi ayırır. Bədənində hələ də həmin günlərin yaralarını daşıyan bu qürurlu qadın 17 dəfə əməliyyat olunmasına baxmayaraq, sağlamlığına tam qovuşa bilməyib. "O qəlpələrdən hələ də var bədənimdə, mən bununla qürur duyuram, Vətənim azaddır. Getdim, Şuşanı gördüm, Sədərəkdən Şuşaya gedən yolu xatırladıqca qürurlandım. Ruhunuz şad olsun igidlər, qardaşlarım, oğullarım", – dedim.

Bəli, bu gün Vətənimiz bütövdür, azaddır, xalqımız qalibdir. Onun kimi qadınların, Vətəni ana bilən qızların, oğulların torpağa qarışan qanı hesabına. Vətənini öz canından əziz bilən vətənpərvər insanların, bədənində düşmən mərmisinin qəlpəsini ömrünün sonuna kimi daşısa da, mübarizliyini itirməyən döyüşçü qadınların Vətən eşqi ilə çırpınan ürəyinin sayəsində.

✍ Ramiyə ƏKBƏROVA



## Vətən torpağına dönənlər



Soyuq bir qış günü başlayıb çox qısa keçirdikləri birgə ömür. Bir sinifdə oxumalarına baxmayaraq, qismətləri çox sonra birlikdə oldu Abbasəli və Mədinə xanımın. Mədinə xanım həyat hekayələrini danışdıqca gözlərində yaş gilələnirdi. Sanki o günləri yenidən yaşayırdı. Çox qısa ömür sürsələr də, böyük bir hekayələri olub. Hər sözündən biri Abbasəli idi Mədinə xanımın.

Şəhid Abbasəli ilə Mədinə xanım eyni məktəbdə təhsil alıblar. "Biz eyni sinifdə oxumağımıza baxmayaraq, heç də bu haqda düşünməmişdik. Nə mən, nə də Abbasəli. Bizim sevgimiz sinif yoldaşlarımızın toyunda başladı. 1988-ci ilin fevral ayında nişanlandıq, həmin ildə də toyumuz oldu. Sonra bir qızımız oldu. Adını Şövkət qoyduq. Atası Şövkəti çox sevirdi. Amma heç kimin yanında sevgisini büruzə verməzdi. Abbasəli həm mehriban, həm də ailəcanlı idi. Vətənini daha çox sevirdi.

Sədərəkdə müharibədə iştirak edirdi. Ev üzü görmürdü. Gedəndə mənə və anasına dedi ki, mən gedirəm, heç kim bir kəlmə danışmasın.

Yanvarın 19-u evə gəldi. Paltarları tamamilə islanmışdı. Atışma olanda suyun içərisinə düşmüşdü. Gəldi, əynini dəyişdi. Qızını qucaqlayıb bağrına basdı. Təzəcə oturmuşdu ki, həyəcan siqnalı verildi. Ayağa qalxdı, hazırlaşıb Sədərəyə yollandı. Anası Abbasəli üçün papaq axtarmağa getdiyindən evə gələnə qədər artıq Abbasəli evdən çıxmışdı. Ana-bala bir-biri ilə görüşə bilmədilər.

Həmin gün 19-dan 20-nə keçən gecə şəhid olub. Abbasəli Sədərək döyüşlərində tibb bacısı kimi iştirak edən Nəzifə xanımın qollarında dünyasını dəyişib. Son sözü "Ay ana" olub.

20 Yanvar günü Bakıda baş verən hadisələri televizordan izləyib ağlayırdıq. Heç düşünmədim ki, mənim başıma da gələcək belə hadisə. Ömür-gün yoldaşımı itirəcəyəm. Həmin gün həyəcan siqnalı verildi ki, bütün işıqlar söndürülsün. Ərazidə olan evlərdən işıq gəlmirdi. Yalnız bizim evin işığı yanırdı. Şəhid Abbasəlinin evində.

20 Yanvar bizim qürur, mərdlik günümüzdür. Bu gün suverenliyimizin, azadlığımızın başlanğıcı oldu. Canlarından keçərək Vətən torpağını azad edənlər özləri bir ovuc Vətən torpağına döndülər.

✍ Turan MƏMMƏDLİ

## Ulu Öndər Heydər ƏLİYEV:

*"Mən bir neçə gün idi ki, Naxçıvana gəlmişdim. İlk çıxışımı Sədərəkdə etdim. Məhz buna görə, sədərəklilərin qəhrəmanlıqlarına görə, Azərbaycan torpağının bu ucqar yerində, sərhədində möhkəm dayandıqlarına görə və göstərdiyi şücaətə görə mən buraya gəldim."*

## Mirhəşimin timsalında bütün şəhidlərimizin ruhu şaddır



Qəhrəmanlıqla Vətənimizin hər bir qarış torpağı üçün canını fəda edən igid oğullarımız illər ötsə də, daha çox xatırlanır. Onların qəlbindəki Vətən sevgisi o qədər müqəddəs idi ki, öz canlarını fəda etməkdən belə çəkinmədilər. Biz də belə Vətən oğullarını gələcək nəsillərə tanıtmaq üçün onların keçdikləri ömür yolunu qələmə almağı özümüzə borc bilirik. Belə oğullardan biri də 1958-ci ildə Şərur rayonunun Oğlanqala kəndində anadan olmuş, Seyidov Mirhəşim Mirşəmil oğludur. Şəhidimizin evində həyat yoldaşı Sədaqət xanımla həmsöhbət olduq. Sədaqət xanım bildirdi ki, Mirhəşim Seyidov 1977-ci ildə həqiqi hərbi xidmətə çağırılmış və hərbi xidmət zamanı döyüş texnikasını mükəmməl öyrənmişdi. Xidməti başa vurduqdan sonra gözətçi işləyir, ailəsinin ehtiyaclarını ödəyirdi.

O, vətənpərvərlik duyğusunu bütün hisslərdən uca tutaraq I Qarabağ döyüşlərində könüllü olaraq iştirak edib, 19 yanvar 1990-cı ildə Sədərək uğrunda gedən döyüşlərdə şəhidlik zirvəsinə ucalıb. Bu gün ondan bizə yadigar qalan üç övladıdır. Mirhəşim Vətən torpağından düşmənə pay verməyən, öz sinəsini düşmənə sipər edən oğullardan olub. Bu gün yoldaşımın adını nəvəm daşıyır. Mən yoldaşımla qürur duyuram. O, şəhid olaraq Azərbaycan xalqının qəlbində əbədi yaşamaq hüququ qazanıb.

Sədaqət xanım bildirdi ki, bu gün Azərbaycanın ərazi bütövlüyü təmin olunubsa, bunun başında Azərbaycan Ordusunun döyüş əzmi, Qələbə ruhu dayanır. Mirhəşimin timsalında bütün şəhidlərimizin ruhu şaddır. Ölkə başçısı cənab İlham Əliyev də şəhid ailələrini daim diqqətdə saxlayır.

Qeyd edək ki, Mirhəşim Seyidovun nəşi 20 yanvar 1990-cı ildə Şərur rayonunun Oğlanqala kəndinə gətirilmiş və Şərur şəhərindəki Şəhidlər xiyabanında dəfn olunmuşdur.

✍ Bülbül QULİYEVA





# Tarixin qürur dolu səhifəsi – Sədərək döyüşləri



Bir igidin ömrü qədər bir zaman. Bu gün Vətənin başladığı yerdə – Sədərəkdə hər daşında bir şəhidin adı olan zirvələrdə dalğalanan üçrəngli, ay-ulduzlu bayraqlara baxanda qürurlanırıq. Həmin günləri isə həmsöhbət olduğumuz müharibə iştirakçılarından dinləyib qələmə alırıq. "Sədərək döyüşləri elə bir qəhrəmanlıq səhifəsidir ki, onu yazmaqla, söyləməklə bitməz", – deyir həmin döyüşlərin iştirakçısı Vətən Əhmədov: – O günlər Azərbaycan xalqının taleyinə yazılan bu qara səhifə yurd, torpaq, Vətən sevgisinin sübut edildiyi bir tarixdir, həm də xalqımızın qəhrəmanlıq salnaməsidir... Duz-çörəyə xəyanət edənlər belini əymək istədilər anamız Azərbaycanın, amma əyə bilmədilər. Bakı şəhəri dirəkləri laxlamaqda olan imperiyanın qoşunları tərəfindən amansızcasına güllələbaran edildiyi bir gecədə yaranmış fürsətdən istifadə edən ermənilər və onların havadarları isə bütün sərhədboyu muxtar respublikamızı müxtəlif çaplı avtomat silahlardan, toplardan atəşə tutmağa başlamışdılar. Hamı bir oldu, bu dağlar-qayalar burada döyüşən igidlərin qanı ilə sulandı, amma bir qarışı düşmənə verilmədi. Həmin gecə od yağdırırdı dinc sakinlərin başına mənfur ermənilər. Bizim əlimiz, demək olar ki, yalın idi. Müasir silahlardan istifadə edən və havadarından güc alan ermənilərə qarşı beş-on nəfər polis işçisi və könüllülər ov tüfəngi ilə döyüşürdük. Muxtar respublikanın bölgələrindən Sədərəyə axın-axın insanlar gəlir, döyüşə can atırdı. Hər tərəfdən küncə sıxışdırılsaq da, sınmadıq, əyilmədik.

…Nadir Bağırov da Sədərək döyüşlərinin iştirakçısı, şahididir. O deyir: – Həmin gecə başlayan qanlı döyüşlərdə kənd düşmənin ağır silahlardan atdığı mərmilərlə xarabaya dönmüşdü. Sakinlər həm azğınlaşmış düşmənlə, həm də aclıqla mübarizə aparırdı. Çətin idi, amma mübarizədən dönmürdük. Bir posta elə olurdu ki, onlarla igid can atırdı. Sədərək döyüşlərində göstərilən qəhrəmanlıq haqqında nə qədər danışsam, azdır. Bircə onu bilirəm ki, bizim üçün Vətəndən, torpaqdan əziz heç nə yox idi, indi də elədir. Döyüşə gedən oğullar öz ailələrini belə kənddən çıxarmır, "Biz döyüşüb, sizi qoruyacağıq", – deyirdilər. Analarımız, qadınlarımız evlərdə qalıb bizə – səngərə isti çörək, yemək bişirib göndərirdilər. Bəzən isə elə olurdu ki, günlərlə ac qalırdıq, yenə də döyüşürdük. Həmin il qış da sanki öz "gücünü" göstərirdi. Elə soyuq, şaxtalı havalarda isti geyim, yanacaq olmadan döyüşür, düşmənə layiqli cavab verirdik.

Bu xalq, bu millət heç bir zaman düşmənə baş əyməyib, əyməyəcək də. Bunu Vətən müharibəsində bir daha sübut etdik. Babalarımızdan bizə yadigar qalan və oğullarımıza ərməğan etdiyimiz hünər və cəsarəti onlar da Vətən müharibəsində dünyaya göstərərək 30 ildir, düşmən caynağında qalan torpaqlarımızı azad etdilər.

Vəzir İmamverdiyev "Cin təndiri" deyilən yerdə, Qaraağacda döyüşüb. Deyir ki, yanvarın 19-dan 20-nə keçən gecə başlayan döyüşlərdə silahımız, isti geyimimiz olmasa da, qəlbimizi isidən Vətən sevgimiz var idi. Səngərdə "Haralısan?"– sualı yox idi, təkcə Vətən var idi. Hamımız yaxşı dərk edirdik ki, qeyrət qalamız Sədərəyi itirsək, bütün Naxçıvanı təhlükəyə atarıq. Hamı bir olub, əlbir olub, bir hədəfə – düşmənə qarşı döyüşürdü. Elə gecə olurdu ki, səhərə qədər nəfəs belə almadan döyüşürdük. Sərt hava şəraiti, silah azlığı bizi sındırmırdı. Vandallar səhərə kimi dinc Sədərəyi güclü atəşə tuturdular. 12 min əhalinin yaşadığı kəndin hər səhəri döyüşlə açılırdı. İgid döyüşçülərimiz mərdlik göstərərək düşmənin iradəsini qırmağa nail oldular. Bir-birindən qeyrətli oğullar canlarını Vətən yolunda qurban verirdi. Cəbhədə olan hər kəs əli silah tutanların necə qəhrəmancasına vuruşduqlarını görürdü. Həmin çətin günlərdə qeyrətli, igid oğullarımız mərdliklə vuruşdular və qalib gəldik.

Həmin illərdə Sədərəkdə qazanılan Zəfər yolunun davamı 2020-ci ildə Qarabağda çəkildi. Və 1990-cı illərdə burada canını Vətənə sipər edən oğulların davamçılarının səsi Vətən müharibəsində Şuşadan, Cəbrayıldan, Zəngilandan gəldi. Onlar torpaqlarımızı işğaldan azad edib, şəhid, qazi, qalib olub başımızı uca tutub, tarix yazıb bu xalqı əbədi qəhrəman elan etdilər.

44 gündə ordumuzun qüdrətindən qorxuya düşən ermənilər Sədərəyə bir güllə atmağa belə cəsarət etmədilər.

✍ Ramiyə ƏKBƏROVA



# Bizim taborun şəhidləri

Görkəmli dövlət xadimi Heydər Əliyev yaxşı bilirdi ki, Naxçıvanda milli ordunun yaradılması vacibdir. Ulu Öndər Ali Məclisin Sədri seçildikdən 4 gün sonra Naxçıvan Müdafiə Komitəsi yaradıldı, bir müddət sonra "Naxçıvan Muxtar Respublikasının müdafiəsinin və sərhədlərinin qorunmasının təşkili haqqında" Qərar qəbul edildi. 1992-ci il sentyabrın 15-də Naxçıvan Muxtar Respublikası ərazisində ilk milli motoatıcı briqada təşkil edildi və Dövlət Müdafiə Komitəsinin bütün əmlakı bura təhvil verildi.

1992-ci ilin oktyabrında Naxçıvan şəhərində ilk yaradılan bu hərbi birləşmənin paradı keçirildi. Ümummilli Lider o zaman özü şəxsən bu paradı qəbul etdi. Dahi rəhbərin qətiyyəti ilə sovet qoşun hissələri Naxçıvanı tərk edərkən onlara məxsus silah və döyüş texnikaları Naxçıvanda saxlanıldı. Bu silah və texnika, əhalinin dahi liderə inamı Naxçıvanı erməni işğalından qurtardı.

Ölkə Prezidenti cənab İlham Əliyev də Ulu Öndərin yolunu uğurla davam etdirərək ordumuzun qüdrətini daha da artırıb. Bunun nəticəsində torpaqlarımız işğaldan azad edilərək böyük tarixi Qələbə qazanılmışdır.

***Birinci Qarabağ müharibəsi. Və biz Naxçıvan batalyonu Qarabağa yollanırıq...***

Ötən əsrin sonlarından başlayaraq torpaqlarımızın bütövlüyü uğrunda öz canlarından keçən qəhrəman əsgər və zabitlərimiz bizim qürur mənbəyimizdir. Biz hər zaman igid oğullarımızla fəxr etmişik və bu gün də fəxr edirik. Çünki onların Vətənimizin azadlığı, ərazi bütövlüyü və suverenliyi uğrunda canlarından keçərək şəhid olmaları həm də gələcək nəsillər üçün bir örnəkdir. Buna görə də bütün şəhidlərimizin simasında ötən əsrin 90-cı illərində xidmət etdiyim taborda şəxsən yaxından tanıdığım şəhid əsgər yoldaşlarımı bir daha dərin hörmət və ehtiramla yad edirəm!

***Rzayev Etibar Qürbət oğlu***

Şəhid Rzayev Etibar Qürbət oğlu 30 mart 1974-cü ildə Ordubad rayonunun Kələntər Dizə kəndində anadan olmuşdu. Ailənin dördüncü övladı olan Etibar mərdliyi, cəsarəti ilə fərqlənir, davamlı idmanla məşğul olurdu.

1992-ci ildə Etibar hərbi xidmətə yola salınarkən ağlayan bacısına demişdi: "Burada nə var ki, inşallah, düşməni məhv edib qayıdanda ağlayarsan, özü də sevincdən". Atası isə oğlunun boynunu qucaqlayıb "Sən doğma Azərbaycanımızın müqəddəs torpaqlarını qorumağa gedirsən, özündən muğayat ol. Mənim başımı aşağı etmə!" – deyərək öz nəsihətini vermişdi. Qarabağın müdafiəsinə yollanmamışdan az əvvəl ailə həyatı quran Etibarı bütün doğmaları yola saldı. Və bu, Etibarın doğmaları ilə son görüşü oldu.

30 aprel 1994-cü il tarixdə Ağdam rayonunun Qərvənd kəndi istiqamətində gedən döyüşlər zamanı şəhadətə yüksələn Rzayev Etibar Qürbət oğlu doğma kəndində torpağa tapşırıldı.

***Quliyev Azər Məhərrəm oğlu***

Şəhid Azər Məhərrəm oğlu Quliyev 22 iyun 1973-cü ildə Ordubad rayonunun Dırnıs kəndində dünyaya gəlmişdi. İlk təhsilini Dırnıs kənd orta məktəbində alan və 1990-cı ildə həmin məktəbin onuncu sinfini bitirən Azər 5 saylı texniki peşə məktəbində təhsil aldıqdan sonra 1991-ci ildə hərbi xidmətə çağırılır. İlk döyüşü Sədərək istiqamətində olan Azər Quliyev çavuş məktəbini də bitirir. Onu Qaraburun postunun müdafiəsinə təyin edirlər.

1993-cü ildə Azər Xankəndi alayına hərbi xidmətə göndərilir. Burada da nümunəvilik və igidlik nümayiş etdirən Azər düşmən tankını sıradan çıxarır. O, 1994-cü ilin aprel ayında isə Ağdamın Baş Qərvənd kəndinə xidmətə göndərilir. Oğlundan nigaran qalan Məhərrəm kişi böyük əziyyətdən sonra onu yaralı tapır. Azər təcili olaraq Bakıya Semaşko xəstəxanasına gətirilir. Xəstəxanada 6 gün yaşayan Azər 1994-cü il may ayının 10-da atasının qolları arasında can verərək şəhadətə yüksəlir. Şəhid Azər Quliyev Dırnıs kəndinə gətirilərək böyük ehtiramla dəfn edilir.

***Quliyev Rəqib Telman oğlu***

Culfa rayonunun Boyəhməd kəndinin yetirməsi şəhid Rəqib Quliyev də tabor yoldaşlarımızdan biri olub. Rəqib 3 noyabr 1973-cü ildə Boyəhməd kəndində doğulmuşdu. 9 uşaqlı ailənin beşinci övladı idi. İlk təhsilinə 1981-ci ildə Boyəhməd kəndində başlayan Rəqib 1989-cu ildə məktəbin 8-ci sinfini bitirərək rayonun Qazançı kəndində fəaliyyət göstərən texniki peşə məktəbində təhsilini davam etdirir. 1991-ci ildə həqiqi hərbi xidmətə yollanan Rəqib 1994-cü ilin mart ayına qədər Sədərək rayonunda erməni quldur dəstələrinə qarşı hərbi əməliyyatlarda yaxından iştirak edir. 1994-cü ilin mart ayında Rəqib Azərbaycan Milli Ordusunun Ağdamdakı bölmələrinin tərkibinə qatılır. O, bir ay davam edən döyüşlərdə iştirak edir və 30 aprel 1994-cü ildə Ağdam rayonunun Qərvənd kəndi uğrunda gedən döyüşlərdə şəhidlik zirvəsinə ucalır. Rəqib Quliyev 1 may 1994-cü ildə doğulub boya-başa çatdığı Boyəhməd kəndində dəfn olunub.

***Şirinov Ruslan Yusif oğlu***

Şəhid Şirinov Ruslan Yusif oğlu 30 mart 1975-ci ildə Biləsuvar rayonunun Təzəkənd kəndində anadan olmuşdu. 1982-1993-cü illərdə Təzəkənd orta məktəbində təhsil almışdı. O, Bədən Tərbiyəsi Akademiyasının nəzdindəki texnikuma qəbul olmasına baxmayaraq, 15 aprel 1993-cü ildə hərbi xidmətə yollanır. İlk olaraq Lənkəranda daxili qoşunların "N" hərbi hissəsində xidmətə başlayan qəhrəman sonra Naxçıvanda, daha sonra isə Naxçıvan batalyonunun tərkibində Ağdam rayonunda hərbi xidmətini davam etdirir.

Ruslan Ağdam rayonunun Qərvənd kəndi uğrunda gedən döyüşdə şəhid olaraq 1 may 1994-cü ildə Təzəkənd qəbiristanlığında torpağa tapşırılır.

Ölümündən sonra adı əbədiləşdirilərək Təzəkənd tam orta məktəbinə verilib.

***Hümbətov Həsən Mahir oğlu***

Şəhid Hümbətov Həsən Mahir oğlu 13 fevral 1975-ci ildə Şərur rayonunun Maxta kəndində dünyaya göz açmış, 1982-1992-ci illərdə Şərur rayon Maxta kənd tam orta məktəbində təhsil almışdı. 1993-cü ilin oktyabr ayında Həsən ordu sıralarına yollanır. Naxçıvan şəhərində yerləşən Xankəndi alayında xidmətə başlayan Həsən 1994-cü ilin aprelində Naxçıvan batalyonunun bir qrup şəxsi heyəti ilə Qarabağa göndərilir.

28 aprel 1994-cü il tarixdə Ağdam rayonunun Aşağı Qərvənd kəndinin adsız yüksəkliklərində erməni işğalçılarının minomyot atəşinə baxmayaraq, geri çəkilməyən Həsən burada bir çox döyüş yoldaşı ilə bərabər şəhidlik zirvəsinə ucalır. Şəhidin nəşi 30 aprel 1994-cü ildə Şərur rayonuna gətirilərək Şəhidlər xiyabanında dəfn edilir.

***

Mən 15 iyun 1996-cı ildə Azərbaycan Silahlı Qüvvələrindən tərxis olundum. Bu gün qazanılan qalibiyyətin təməli dünən çəkilən acılardan qoyulub. Dünənə nəzər saldıqda ölkəmizin bu günlərə qədər necə keşməkeşli yollardan keçdiyini görürük. Tarixin toz basmış səhifələrində yarımçıq qalmış ömürlərin tamamlanmamış səhifələri var. Vətənin kürəyinə dəyən oxlar vətəndaşların ürəyini hər daim qanadıb. Hər qarışında bir qəhrəman oğul uyuyan bu müqəddəs Vətən oğullarına, oğulları isə Vətənə qucaq açıb.

Azərbaycan torpaqlarının müdafiəsi uğrunda canından keçərək şəhidlik zirvəsinə yüksələn bizim taborun (Naxçıvan batalyonunun) şəhidlərinin xatirəsini bir daha anaraq qəhrəman əsgər yoldaşlarıma Tanrıdan rəhmət diləyirəm! Ruhunuz şad olsun!

**Faiq SƏFƏROV**

***Naxçıvan Muxtar Respublikası Prokurorluğunun şöbə rəisi, baş ədliyyə müşaviri, Azərbaycan Respublikasının müharibə veteranı***



# Ölkəmizin tarixində unudulmaz səhifə – 20 Yanvar



*Yanvarın 19-dan 20-nə keçən gecə... Xalqımızın tarixinə qanla yazılmış bir səhifə. Bu səhifəni təkcə faciə adlandırmaq olmaz. Bu, Azərbaycanın istiqlal yolunun ilk zirvəsi, azadlıq istəyinin oyanış günüdür. Uzun illər sovet imperiyasının əsarətində yaşayan xalqın azadlıq səsini ucaltdığı, öz suverenliyi uğrunda cəsarət nümayiş etdirdiyi şərəfli bir tarixdir.*

**Xəzəngül ORUCOVA**
***Naxçıvan Muxtar Respublikası Ali Məclisinin deputatı***

Xüsusi təlim keçmiş qoşun hissələri yanvarın 19-dan 20-nə keçən gecə Bakı şəhərinə 3 istiqamətdə yeridilərək dinc əhaliyə qarşı misli görünməmiş vəhşiliklər etdilər. Bu hadisə zamanı 147 Azərbaycan vətəndaşı şəhidlik zirvəsinə yüksəldi, 744 nəfər yaralandı və xəsarət aldı, 841 nəfər qanunsuz həbs edildi. Həmin faciəli günlərdə ölkəsinin, xalqının azadlığını, şərəf və ləyaqətini hər şeydən uca tutan mərd Vətən övladları canlarından keçərək şəhidlik zirvəsinə ucaldılar. 20 Yanvar faciəsi cinayətkar imperiya rəhbərliyinin Azərbaycana qarşı xəyanətkar siyasətinə dözməyən, öz azadlığına, müstəqilliyinə can atan xalqımızın həm də mübarizliyini, əyilməzliyini, məğrurluğunu nümayiş etdirdi. Məhz Vətən övladlarının qanı bahasına uzun illərdən bəri arzusunda olduğumuz müstəqilliyə qovuşduq və ölkəmiz suverenlik əldə etdi.

Qanlı 20 Yanvar faciəsinə dövlət səviyyəsində tam siyasi-hüquqi qiymət verilməsi məsələsi Ümummilli Lider Heydər Əliyevin sayəsində həllini tapdı. Faciənin ertəsi günü dahi şəxsiyyət Azərbaycanın Moskvadakı Daimi Nümayəndəliyinə gələrək xalqla birgə olduğunu bildirdi, 20 Yanvar faciəsinə siyasi qiymət verdi, onun hüquqa, demokratiyaya, humanizmə zidd olduğunu, mərkəzin və ozamankı respublika rəhbərlərinin xəyanəti üzündən baş vermiş siyasi səhv olduğunu bəyan etdi. Dahi şəxsiyyət faciə ilə əlaqədar xalqımıza başsağlığı verdi və mətbuat konfransı keçirdi. Bakıdakı terror aktına rəvac verən hakimiyyət nümayəndələrini və hərbçiləri cinayətkar, onların dinc əhaliyə tutduqları divanı isə bütöv bir xalqa qarşı edilən tarixi cinayət adlandırdı. Bu tarixi çıxışın mətni Kremlin kəskin informasiya blokadası siyasətinə baxmayaraq, bütün dünyada, o cümlədən Azərbaycanda yayıldı və geniş əks-səda doğurdu. Azərbaycan xalqının qəlbində ümid çırağı yandı.

***"Mən bu faciəyə həmişə ürəkdən yanaraq həm də vətəndaşlıq borcumu yerinə yetirməyə çalışmışam və bu gün də həmin mövqedəyəm, sabah da həmin mövqedə olacağam. Birinci növbədə, ədalət naminə, eyni zamanda Azərbaycan xalqının namusunu, şərəfini, milli mənliyini qorumaq naminə"***, – deyən görkəmli dövlət xadimi Heydər Əliyev Azərbaycan xalqının ən çətin anında Moskvadan doğma Vətəninə qayıdanda Azərbaycan çox ağır günlərini yaşayırdı. Respublikamız parçalanmaq təhlükəsi qarşısında qalmışdı. Xalqımızın böyük oğlu Moskvada nə qədər təhdid və təzyiqlər altında yaşayırdısa, Azərbaycanda da onu xalqa zidd hakimiyyət tərəfindən bir o qədər təzyiq və hədələr gözləyirdi. Buna baxmayaraq, Ulu Öndər Vətənə döndü. Böyük siyasətçinin öz xalqına olan sevgisi, xalqın da Ümummilli Liderimizə inamı məkrli qüvvələrin arzularını ürəklərində qoydu.

Görkəmli dövlət xadimi Heydər Əliyevin təşəbbüsü ilə 1990-cı il noyabrın 21-də Naxçıvan Muxtar Respublikasının Ali Məclisində 20 Yanvar faciəsinə ilk dəfə siyasi-hüquqi qiymət verən Qərar qəbul edildi. Azərbaycan xalqının ümumi rəyini özündə təcəssüm etdirən bu qərar Ulu Öndər Heydər Əliyev qətiyyətinin təzahürü kimi tarixə düşdü. Sənəddə respublika səviyyəsində 20 Yanvar faciəsinə siyasi-hüquqi qiymətin verilməsi ölkə rəhbərliyindən tələb edilirdi.

Ümummilli Lider Heydər Əliyevin 1993-cü ildə xalqın təkidli tələbi ilə hakimiyyətə qayıdışından sonra 20 Yanvar hadisəsinə dövlət səviyyəsində siyasi-hüquqi qiymət verilmiş, görkəmli dövlət xadiminin 1994-cü il yanvarın 5-də imzaladığı Fərmanda Azərbaycan Respublikasının Milli Məclisinə hadisəyə tam siyasi-hüquqi qiymət verilməsi tövsiyə olunmuşdur. Fərmanda deyilirdi: *"Xalqımızın tarixinə Qanlı Yanvar faciəsi kimi daxil olmuş 1990-cı ilin yanvarın 20-də Azərbaycan öz azadlığı və müstəqilliyi uğrunda ilk şəhidlərini vermişdir. Tarixin yaddaşına qanla yazılmış həmin gündən bizi 4 illik zaman məsafəsi ayırır. Təəssüf ki, 4 il ərzində 20 Yanvar hadisələrinə dövlət səviyyəsində lazımi siyasi-hüquqi qiymət verilməmişdir".*

1994-cü ilin fevralında Milli Məclisin xüsusi sessiyasında Azərbaycana qoşun yeridilməsinin xalqımıza qarşı hərbi təcavüz və cinayət kimi qiymətləndirilməsi, təqsirkarların məsuliyyət dərəcəsinin müəyyənləşdirilməsi də məhz Ümummilli Liderimizin təşəbbüsü ilə baş vermişdir. Milli Məclisin qəbul etdiyi Qərarda 20 Yanvar faciəsinin günahkarları konkret qeyd olundu və bu qanlı aksiya Azərbaycanda milli azadlıq hərəkatını boğmaq, xalqın inamını, iradəsini qırmaq üçün totalitar kommunist rejimi tərəfindən törədilmiş hərbi təcavüz və cinayət kimi qiymətləndirildi. Həmçinin şəhidlərin xatirəsi əbədiləşdirildi, Şəhidlər xiyabanında "Əbədi məşəl" abidə kompleksi ucaldıldı, 20 Yanvar Ümumxalq Hüzn Günü elan edildi, şəhid ailələrinin, 20 Yanvar hadisələrində əlil olan şəxslərin sosial müdafiəsi gücləndirildi. Ulu Öndər Heydər Əliyevin Fərmanı ilə 1998-ci ildə "20 Yanvar Şəhidi" fəxri adı təsis edildi.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev 20 Yanvar şəhidlərinin xatirəsinin əbədiləşdirilməsi, adlarının uca tutulması, o cümlədən onların ailələrinin sosial müdafiəsinin gücləndirilməsini daim diqqətdə saxlayır, bu istiqamətdə mühüm tədbirlər həyata keçirilir. Azərbaycan dövlətinin iqtisadi, siyasi və hərbi qüdrətinin günbəgün artması, haqq səsimizin beynəlxalq tribunalardan səslənməsi xalqımızın bir daha faciələrlə, soyqırımlarla sınağa çəkilməyəcəyinə təminat verir.

Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin rəhbərliyi ilə 2020-ci il sentyabrın 27-dən etibarən 44 gün davam edən Vətən müharibəsində müzəffər Ordumuz əzəli torpaqlarımızı işğaldan azad etdi, şəhidlərimizin qisası alındı, tökülən qanlar yerdə qalmadı. Bu birlik və həmrəyliyi nümayiş etdirənlər məhz 1990-cı ilin 20 yanvarında şəhidlik adlı zirvəni fəth edənlərin ardıcılları idi.

1990-cı il yanvarın 19-dan 20-nə keçən gecə törədilən faciə istiqlaliyyət, suverenlik, müstəqillik uğrunda mübarizəyə qalxmış Azərbaycan xalqının apardığı mücadilənin unudulmaz səhifəsidir. Azərbaycan xalqı onun qanlı yaddaşında silinməz iz qoyan 20 Yanvar tarixini hər il qeyd edir, öz qəhrəman övladlarının əziz xatirəsini dərin ehtiramla yad edir. Hər il yanvarın 20-də Bakı vaxtilə saat 12-də Azərbaycanın bütün ərazisində 20 Yanvar şəhidlərinin xatirəsi bir dəqiqəlik sükutla yad olunur. Şəhidlərimiz və Şəhidlər xiyabanı azadlığımızın, müstəqilliyimizin, milli iradəmizin simvolu kimi bundan sonrakı nəsillər üçün də qürur mənbəyi olacaqdır. Xalqımız əsl qəhrəmanlıq və vətənpərvərlik nümunəsi, şərəf tariximiz olan bu günü heç vaxt unutmayacaqdır.

## Beşinci sosial paket əhalinin yaşayış səviyyəsinə əhəmiyyətli təsir göstərəcək

Azərbaycan dövlətinin daxili siyasətinin ən mühüm istiqamətlərindən biri olan sosial müdafiə və sosial təminat sahəsində aparılan dərin islahatlar vətəndaşlarımızın rifah halının yaxşılaşdırılması və yaşayış səviyyəsinin yüksəldilməsinə etibarlı təminat yaradır."Azərbaycan xalqı ildən-ilə daha yaxşı yaşamalıdır. Bizim artan iqtisadi gücümüz ölkəmizin güclənməsinə, ilk növbədə, xalqımızın rifah halının yaxşılaşmasına yönəlməlidir və biz bunu edirik" ideyası ölkəmizi regionda əhəmiyyətli siyasi-iqtisadi gücə çevirən Prezident cənab İlham Əliyevin həyata keçirdiyi daxili siyasətin əsas ana xətti olaraq insanları firavan həyata qovuşdurmaqdadır. Aparılan məqsədyönlü sosial siyasətin nəticəsidir ki, 2003-cü ildən bu günədək dövlətimizin başçısı tərəfindən imzalanan fərman və sərəncamlar 15-dən çox yeni aylıq sosial ödəniş növünün təsis edilməsinə, habelə pensiya təminatında humanist yanaşmaların tətbiqi sosial təminat sisteminin əhəmiyyətli dərəcədə genişlənməsinə imkan yaradıb. 2018-2023-cü illərdə isə 4 milyondan çox vətəndaşı əhatə edən, 7 milyard manatlıq 4 sosial islahat paketi icra olunub, minimum əməkhaqqı 2,7 dəfə, pensiya məbləği isə 2,5 dəfə artırılıb.

Ötən il dekabrın 23-də Prezident cənab İlham Əliyevin imzaladığı "Əhalinin sosial rifahının yaxşılaşdırılması sahəsində tədbirlərin davam etdirilməsi haqqında" Sərəncam da bu siyasətin məntiqi nəticəsidir. Bu Sərəncamın verilməsi Azərbaycan vətəndaşlarının, o cümlədən bütün həssas kateqoriyadan olan insanların sosial rifahının yaxşılaşmasına müsbət təsirini göstərəcək. Ümumiyyətlə, Prezidentin sosial sahədə imzaladığı sərəncamların əsas mahiyyəti Azərbaycanı inkişaf etmiş sosial dövlətə çevirmək və Azərbaycan əhalisinin sosial rifah halını dünyanın qabaqcıl ölkələrinin sosial rifah halına çatdırmaqdan ibarətdir.

Prezidentin yeni Sərəncamı ilə 2025-ci il yanvarın 1-dən ölkəmizdə minimum aylıq əməkhaqqının məbləği 345 manatdan 16 faiz artımla 400 manat, əmək pensiyasının minimum məbləği 280 manatdan 14,3 faiz artımla 320 manata çatdırılıb. Bu artımlarla birgə artıq 2018-ci ilin əvvəlindən minimum aylıq əməkhaqqında 3,1 dəfə, minimum pensiyada 3 dəfəyədək artma nail olunub.Yeni sosial islahatlar paketində digər sosial ödənişlərin artırılması da yer alıb. Eyni zamanda Nazirlər Kabineti dövlət büdcəsindən maliyyələşən sahələrdə çalışan işçilərin Vahid Tarif Cədvəli ilə müəyyən edilmiş aylıq tarif (vəzifə) maaşlarının tənzimlənməsi haqqında qərarlarında dəyişiklik edərək əməkhaqqılara yeni artımları təsdiqləyib. Verilən son rəsmi açıqlamalara görə, minimum əməkhaqqının artırılması, pensiyaların indeksləşdirilməsi 1 milyon 100 min, ümumi sosial paket isə 3 milyon vətəndaşı əhatə edəcək. Ümumiyyətlə, 2018-2024-cü illərdə müavinət və təqaüd ödənişlərində 5 dəfə artım baş verib və göründüyü kimi və bu il də artım dinamikası davam edir.

Xüsusilə vurğulamaq lazımdır ki, minimum əməkhaqqının artırılması həm dövlət, həm özəl, həm də bələdiyyə sektorunda çalışan, Vahid Tarif Cədvəli üzrə maaş alan hər bir ölkə vətəndaşının sosial rifah halının yaxşılaşdırılmasına səbəb olacaq. Minimum əməkhaqqının 20 faiz civarında artırılması bəzi kateqoriyadan olan vətəndaşların əməkhaqqının 80 manat artımına gətirib çıxaracaq. Bu da 2025-ci il üçün proqnozlaşdırılan və üzləşdiyimiz inflyasiyadan iki dəfəyə yaxın çox məbləğdir. Ümumilikdə, bu islahatlar çərçivəsində 700 min və daha çox vətəndaş əməkhaqqı, təxminən, 1,1 milyon nəfər pensiya, 1,2 milyon nəfər isə sosial müavinət və təqaüd artımlarından faydalanacaq. Eyni zamanda ünvanlı dövlət sosial yardımın minimum məbləğinin artırılması həmin sosial yardıma cəlb olunan ailələrin sayının, həm də ailədə hər nəfərə düşən müavinətin məbləğinin artmasına səbəb olacaq.

Nəticə olaraq yeni sosial paket əhalinin sosial rifahının yaxşılaşmasına, aztəminatlı ailələrin sosial rifahının güclənməsinə və həyat səviyyəsinin yüksəlməsinə öz müsbət təsirini göstərəcəkdir.

**Məmməd MƏMMƏDOV**
***Naxçıvan Muxtar Respublikası Ali Məclisinin deputatı***

## "Arpaçay-2" Su Elektrik Stansiyasında təmir işləri aparılıb



Naxçıvan Muxtar Respublikası Dövlət Energetika Xidmətinin istismar sahəsində olan 1,4 meqavat gücündə "Arpaçay-2" Su Elektrik Stansiyası "Arpaçay Su Paylayıcı Bəndi"ndə 2014-cü ildən istismara verilib. İstismara verildiyi tarixdən 15 962 ekvivalent saat işləmiş 2 nömrəli hidrogeneratorun aşağı çarpazda olan istiqamətləndirici yastığı qırıldığı üçün Azərbaycan Respublikası Prezidentinin 2024-cü il 23 noyabr tarixli "Elektrik enerjisi və su təchizatı sahələrində idarəetmənin təkmilləşdirilməsi və bununla əlaqədar bəzi məsələlərin tənzimlənməsi haqqında" 235 nömrəli Fərmanına əsasən "Azərenerji" Açıq Səhmdar Cəmiyyətinin bu sahədə kifayət qədər təcrübəsinin və ixtisaslı mütəxəssislərinin olduğunu nəzərə alaraq, qırılan yastığın stansiyada olan ehtiyat yastıqla dəyişdirilməsi məqsədilə cəmiyyətə müraciət olunub.

Yanvarın 10-13-də cəmiyyətin "Enerjiservistikintitəmirsazlama" MMC-nin ezam olunmuş ixtisaslı mütəxəssisləri stansiyanın mütəxəssisləri ilə birlikdə hidrogeneratorun qırılmış yastığın yenisi ilə əvəzləyib, sınaq yoxlamaları aparıldıqdan sonra qurğu ehtiyata alınıb.

## *"Naxçıvan Şəhid Ailələri"* İctimai Birliyinin 2024-cü ilin yekunlarına dair iclası keçirilib



Naxçıvan Biznes Mərkəzində təşkil olunan tədbirdə dövlət və hökumət nümayəndələri, şəhid ailə üzvləri, media nümayəndələri və könüllü gənclər iştirak ediblər.

Əvvəlcə Ümummilli Lider Heydər Əliyevin və şəhidlərimizin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib, Dövlət Himni səsləndirilib.

"Naxçıvan Şəhid Ailələri" İctimai Birliyinin təsisçisi, Ali Məclisin deputatı Üzeyir Məmmədov birliyin yaranma tarixi və fəaliyyəti barədə iştirakçıları məlumatlandırıb.

"Naxçıvan Şəhid Ailələri" İctimai Birliyinin sədri Mais Gülməmmədov bildirib ki, 2024-cü ildə, ümumilikdə, 24 tədbir keçirilib. Bunlardan 12-si hər ayın son ongünlüyündə şəhidlərimizin doğum günlərinin qeyd olunması ilə bağlı təşkil olunan tədbirlərdir. Vurğulanıb ki, həmin tədbirlərin ərsəyə gəlməsində Naxçıvan Şəhər İcra Hakimiyyəti, Naxçıvan Dövlət Universiteti, Həmkarlar İttifaqları Şurası, Təhsil Nazirliyi, Müəllimlər İnstitutu və digər dövlət orqanları tərəfindən İctimai Birliyə böyük dəstək göstərilib. Həmçinin əsası vətənpərvərlik qayəsi olan, şəhidlərimizin tanıdılması məqsədilə təşkil edilən bu tədbirlərin işıqlandırılmasında Naxçıvan Televiziyası və "Şərq qapısı" qəzeti, eləcə də digər media nümayəndələri yaxından iştirak edib.

Digər çıxış edənlər də birliyin fəaliyyətini yüksək qiymətləndirib. Qeyd olunub ki, gənclərdə vətənpərvərlik hisslərinin aşılanması, eləcə də şəhid ailələrinə lazımi dəstəyin göstərilməsi baxımından birliyin fəaliyyəti təqdirəlayiqdir.

Tədbirdə "Naxçıvan Şəhid Ailələri" İctimai Birliyinin fəxri üzvlərinə vəsiqə və plaketlər təqdim olunub.

Həmçinin birliyin fəaliyyətinin ictimaiyyətə çatdırılmasında fərqlənən dövlət orqanları və media əməkdaşlarına, eləcə də könüllü gənclərə təşəkkürnamələr, birliyin üzvlərinə isə vəsiqələr təqdim olunub.

Tədbirin sonunda 2025-ci il ərzində "Naxçıvan Şəhid Ailələri" İctimai Birliyi tərəfindən nəzərdə tutulan tədbirlər barədə iştirakçılara məlumat verilib.




# Beynəlxalq təhsil proqramı:
## dünyanın nüfuzlu universitetlərinə qəbul imkanı







*Təhsil ölkənin xoşbəxt gələcəyi, iqtisadi tərəqqisinin bünövrəsi və təməl daşıdır. Ölkəmizdə bu sahəyə yüksək diqqət, məqsədyönlü göstərişlər əsasında atılan addımlar və icra edilən Dövlət proqramları təhsil sistemində keyfiyyətcə yeni inkişaf meyillərinin əldə edilməsinə, yüksək nəticələrin qazanılmasına hədəflənib. Bu da milli kadr potensialının kəmiyyət və keyfiyyət baxımından yetişdirilməsi, təkmilləşdirilməsi işinə mühüm töhfələr verir.*

Prezident cənab İlham Əliyevin imzaladığı “Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafına dair 2023-2027-ci illər üçün Dövlət Proqramı”nın təsdiq edilməsi haqqındakı müvafiq Sərəncamda yer alan Naxçıvan Dövlət Universitetinin nəzdində İngilis dili Təmayüllü Beynəlxalq Məktəbin yaradılması da təhsilə göstərilən diqqətin növbəti ifadəsidir. Naxçıvan Beynəlxalq məktəbi Dövlət Proqramının təsdiqindən keçən qısa zaman ərzində reallaşan layihələrdən biridir. Sərəncama əsasən Naxçıvan təhsil tarixinin ən uğurlu layihələrindən biri olan Naxçıvan Dövlət Universitetinin İngilisdilli Beynəlxalq Məktəbi ilə əyani tanışlıq da onu göstərdi ki, şagirdlərin yüksək səviyyədə təhsil almaları, müəllimlərin isə həvəslə öz fənlərini tədris etmələri üçün burada hərtərəfli şərait yaradılıb, zəruri maddi-texniki baza ilə təchiz edilib. Bununla yanaşı, məktəbdə kimya, fizika və biologiya laboratoriyalarında praktiki iş imkanı, texniki avadanlıqlar ilə zəngin kabinetlər, kitabxana, səliqəli yataqxana, açıq və qapalı idman meydançaları, şagirdlərin hərtərəfli inkişafına imkan yaradan unikal proqramlar mövcuddur.

Məktəbin direktoru Bayram Əliyev İngilisdilli Beynəlxalq Kembric Məktəbinin qəbul qaydaları, gələcək perspektivləri, şagirdlər üçün yaradılan şərait barədə danışdı. Onun sözlərinə görə, NDU-nun Beynəlxalq Məktəbinə Kembric beynəlxalq tədris proqramı ilə 2024-cü ilin sentyabr ayından etibarən 1-ci və 6-cı siniflər üçün tədrisin həyata keçirilməsi istiqamətində beynəlxalq lisenziya verilib.

Bildiyiniz kimi, Kembric proqramı dünyada bir neçə tanınmış, nüfuzlu tədris proqramlarından biridir və Kembric diplomları (attestat) dünyanın ən nüfuzlu universitetləri tərəfindən tanınır. Tədrisi yalnız ingilis dilində həyata keçirilən Kembric proqramına lisenziya almaq üçün məktəblərdən müasir idarəetmə, yeni və effektiv tədris prosesi, müasir tədris imkanları tələb olunur. Məktəbi bitirərkən şagirdlər ingilis dili ilə yanaşı, modern dünya dillərindən ən azı birinə mükəmməl şəkildə yiyələnir. Bu beynəlxalq proqramda IELTS dərəcəsinə malik olan və Kembric tədris proqramı ilə bağlı təlim kurslarından uğurla keçərək sertifikat əldə edən yerli və xarici müəllimlər çalışırlar.

Direktorun sözlərinə görə, hazırda məktəbdə 74 şagird təhsil alır. Beynəlxalq məktəbə 1-ci və 6-cı sinifdə təhsil alacaq şagirdlərin qəbulu həyata keçirilir. Birinci siniflərin qəbulu məktəbəhazırlıq dövründən başlayır. Yəni beynəlxalq məktəbin 1-ci sinfində təhsil almaq istəyən şagirdlər məktəbin məktəbəhazırlıq qruplarına qeydiyyatdan keçərək həmin qruplarda iştirak edirlər. Həmçinin 5-ci sinfi başa vuraraq 6-cı sinfi beynəlxalq məktəbdə təhsilini davam etdirmək istəyən şagirdlər üçün də məktəbdə hazırlıq qrupları yaradılıb. Hazırlıq qruplarında iştirak edən şagirdlər may ayından başlayaraq imtahan əsasında beynəlxalq məktəbdə təhsil almaq imkanı qazanırlar. Onu da qeyd edim ki, hazırda xarici ölkə vətəndaşı olan bir müəllim məktəbdə fəaliyyət göstərir. Gələcəkdə tədrisin daha keyfiyyətli təşkili üçün xarici ölkələrdən digər müəllimlərin də məktəbə dəvəti nəzərdə tutulur. Bu kimya, biologiya, riyaziyyat, fizika və digər fənlərin tədrisinin məhz ingilis dilində həyata keçirilməsində böyük əhəmiyyət daşıyır. Əminliklə qeyd edə bilərik ki, Azərbaycan təhsil tarixində ilklərə imza atan Naxçıvan Dövlət Universitetinin İngilisdilli Beynəlxalq Məktəbi də qısa zamanda təhsilin inkişafı istiqamətində yüksək təhsil göstəriciləri ilə dövlətimizin inkişafına öz töhfələrini verəcək.

Məktəbin müəllimi Səma Hüseynova bildirdi ki, ümumtəhsil sistemində təlimin təmayüllər üzrə təşkili müxtəlif fənlər baxımından xüsusi istedad və qabiliyyətə malik uşaqların daha da inkişaf etdirilməsi, onlara seçilmiş istiqamətlər üzrə dərin biliklərin verilməsi məqsədinə xidmət edir. Təmayül fənləri üzrə dərinləşdirilmiş proqramlarla tədrisin aparıldığı belə təhsil ocaqları adi ümumtəhsil məktəblərindən bir sıra üstünlüklərə malikdir. Belə ki, təmayüllü məktəblərə şagirdlər xüsusi seçim prosedurları vasitəsilə qəbul edilir, həmin təhsil müəssisələrinin maddi-texniki bazası daha yüksək olur, təmayül fənlərinin tədrisinə çox vaxt ayrılır. Eyni zamanda belə məktəblərə yüksək hazırlıqlı və ixtisaslı müəllimlər cəlb olunur. Təbii ki, bu üstünlüklərinə görə cəmiyyətin təmayüllü məktəblərdən gözləntiləri də çoxdur. Onların məzunları daha hazırlıqlı, seçilmiş təmayül fənləri üzrə yüksək bilikli olmalıdırlar. Biz də məktəb kollektivi olaraq çalışacağıq ki, Naxçıvan Dövlət Universitetinin Kembric Beynəlxalq Məktəbində təhsil alan şagirdləri gələcək üçün vətənpərvər, intellektli, peşəkar kadrlar olaraq hazırlayaq.

Səma müəllim qeyd etdi ki, burada təhsil alan şagirdlər təhsillərini başa vurduqda məktəbdən aldıqları beynəlxalq attestatla xarici ölkələrdə imtahansız təhsillərini davam etdirə biləcəklər.

Burada olarkən ingilis dilini öz ana dili kimi bilən şagirdlərlə görüşüb, onların məktəblə bağlı fikirlərini öyrəndik. 94 balla məktəbə qəbul olan Asif Axundzadə deyir ki, ingilis dili, demək olar ki, bütün dillərdən öndədir. Bu gün beynəlxalq danışıq dili kimi ingilis dilini bilmədən dar mühitdən və çərçivədən kənara çıxa bilmirsən. Bu baxımdan bu məktəbi seçmək məni çox sevindirir. Qəbul imtahanı zamanı ingilis dili üzrə 100 sualdan 94-nü düzgün cavablandırmışdım. Ümumiyyətlə, uşaq yaşlarından ingilis dilinə böyük marağım var. Gələcəkdə seçəcəyim peşənin ali təhsilinə bu dildə yiyələnməyim mənim üçün ən böyük uğur olacaq.

Məktəbdə yaradılmış hərtərəfli tədris şəraiti burada şagirdlərin yüksək təhsilə malik olmalarına imkan verməklə yanaşı, onların arzularına inamla addımlamalarında körpü rolunu oynayacaq. İnanırıq ki, yüksək intellektə malik şagirdlərimiz yaradılan şəraitdən səmərəli istifadə edərək göstərilən etimadı doğruldacaqlar. Biz də beynəlxalq məktəbin kollektivinə və gələcəyimiz olan gənclərə şərəfli təhsil yolunda uğurlar diləyir, parlaq və etibarlı gələcək naminə irəlilədikləri yolda böyük nailiyyətlər qazanmağı arzulayırıq.

**Gülcəmal TAHİROVA**




*“Şərq qapısı” qəzeti ötən ildən yeni layihəyə start verib. Belə ki, qəzetimizin nömrələrində şəhid analarının övladları haqqında xatirələri yer alır. 44 cümləyə sığışdırılacaq hər bir xatirənin şəhidlərimizə böyük sevgi və ehtiram kimi oxucularımız tərəfindən də maraqla qarşılanacağına əminliyimizi bildirir, şəhidlərimizin ruhu qarşısında baş əyir, belə igid oğullar böyütmüş analarımıza minnətdarlığımızı ifadə edirik. Bugünkü nömrəmizdə Şərur rayonunun Danyeri kəndindən olan şəhidimiz Vüsal Tahirovun anası Rəsmiyyə Tahirova, Ordubad rayonunun Düylün kəndindən olan şəhidimiz Asiman Əliyevin atası Vaqif Əliyev və Şərur rayonunun Yengicə kəndindən olan şəhidimiz Turqut Xəlilbəylinin anası Almas Hüseynovanın övladları haqqında xatirələri yer alıb.*

# 100 ilin qəhrəmanları

## Vüsal Mehdi oğlu Tahirov

*(01.05.1997-16.11.2020)*

### Vətənini bizdən çox sevdi





Vüsal çox qoçaq olub. İdmana, xüsusilə də futbola böyük marağı var idi. Həmişə kubokla evə dönərdi. Demək olar ki, Naxçıvanda keçirilən yarışların hamısına gedirdi. Qaçış üzrə birinci yerə layiq görülmüşdü.

Vətənini çox sevirdi. Həmişə məzuniyyətə gələndə gördüyü işlərdən danışardı. Müharibəyə gedəndə atasına deyib ki, “Mən Vətən oğluyam”, mütləq müharibədə iştirak edəcəyəm. Müharibə zamanı bacısı ilə danışıb. Bacısına deyib ki, hər şey yaxşı olacaq.



Vüsal çox səliqəli və zəhmətkeş uşaq idi. Hətta şalvarını ütüləməyə belə mənə razılıq vermirdi. Müharibəyə gedən vaxt yoldaşları otağından video çəkiblər. O vaxt belə otağı çox səliqəli idi. Müharibəyə getməyini bizə deməmişdi. Mənim bilməyimi istəməyib.

Vüsal həm də zarafatcıl idi. Sonuncu danışığımızda da zarafatından qalmırdı. Mən həmişə ona “Mama qurban”, – deyərdim. Son danışığımızda telefonu açan kimi dedi ki, “Mama qurban necəsən?” Mən fikirləşmədim ki, balamın səsini sonuncu dəfə eşidirəm. Heç ağlıma da gəlmədi.

Oğlum Şuşada gedən döyüşlər zamanı şəhidliyə yüksəldi. Vüsal haqqında danışmaq çox ağırdır. Bir ana kimi içim qan ağlayır. Amma o qədər qürurlu, o qədər fəxrliyəm ki... Vüsalın gözəl məziyyətləri var idi. Çox dostcanlı, mehriban oğlan olub. Dostlarının sayı-hesabı yox idi. O, sakittəbiətli, qoçaq olması ilə tanıyanları tərəfindən sevilirdi.

Vüsal ailəsinə də çox bağlı idi. Atasına, mənə, bacısına ürəyini də verərdi. Çox sevirdi bizi. Amma Vətənini bizdən çox sevdi. Ömrünü Vətənə qurban verdi. Vətəni, torpağı var olsun deyə canından keçdi. Torpaq oldu. Vətən oldu. Vüsal indi cənnətdən bizi seyr edir. Düşmən tapdağından azad olunmuş Vətəninə öz dünyasından baxır. Mən oğlumla fəxr edirəm. Vüsal kimi oğul böyütdüyüm üçün qürurluyam. Allah bütün şəhidlərimizin məqamını uca etsin!

Vətən sağ olsun!

## Asiman Vaqif oğlu Əliyev

*(01.02.1987-07.11.2020)*

### Bu gün biz Asimanın arzuladığı Azərbaycanda yaşayırıq





Asiman çox mehriban, cəld, hazırcavab oğlan idi. Hər bir çətin vəziyyətdən asanlıqla çıxa bilirdi. Zəhmətkeş böyütmüşdük. Həyətyanı təsərrüfatımızda hər işimizə kömək edirdi. Yəni zəhmətdən qorxmurdu. Çoxlu dostları vardı. Həm də humanist idi. Ətrafdakılara əl tutmağı xoşlayırdı. Kənd camaatı bu gün də onun xeyirxahlığından danışır.

Oğlum mənim üçün həm qardaş, həm dost, həm də yoldaş idi. Onun xatirələri mənim yaddaşımdan heç vaxt silinməz.



Bir dəfə onunla birlikdə kəndin yaxınlığındakı gölün kənarına getmişdik. Balıq tutmaq istəyirdik. Beş-altı balıq tuta bildik. Elə gölün qırağında balıqları bişirdik. Asiman balıqları yeməyə başladı. Balığın gözünə çatanda dedim ki, Asiman balığın gözünü yeməzlər. Dedi ki, ay ata, dadlıdır. Dedim ki, oğul, deyəsən, sən ilanyeyən olacaqsan. O söhbətimiz heç yadımdan çıxmır. Bilirsiniz ki, qorxmaz insanlara ilanyeyən deyirlər. Asiman da belə qorxmaz böyümüşdü.

Uşaqlıqdan ən böyük arzusu idi hərbçi olmaq. Hərb sənətinə böyük sevgisi var idi. İlk günlərdən döyüşlərə atıldı. Döyüş yoldaşları həmişə onun qoçaqlığından danışırlar. Asimanın şəhid olması məni yıxdı. O mənim hər şeyim idi. Bütün hərəkətlərindən məğrurluq yağırdı.

Asimanın yoxluğuna anası tab gətirmədi. 40 mərasimi günü dünyasını dəyişdi.

Asimanın üç övladı var. Onlar mənim təsəllimdir. Övladlarını çox sevirdi. Həyat yoldaşı ilə noyabrın 7-si səhər tezdən danışıb. Ona deyib ki, övladlarım sənə əmanətdir.

Asiman Xocavənd döyüşləri zamanı şəhid olub. Arzusu idi Şuşanı, Xocalını, Xankəndini azad görmək. Bu gün biz Asimanın arzuladığı Azərbaycanda yaşayırıq. Asiman kimi oğullar canlarını Vətənə sipər etdilər. Bugünkü Azərbaycan naminə canlarından keçdilər.

Mən oğlumla fəxr edirəm. Çox sevinirəm ki, oğlum igid qəhrəmandır. Vətən sağ olsun!

## Turqut Nadir oğlu Xəlilbəyli

*(04.07.1993-07.10.2020)*

### Mən həm həkiməm, həm də döyüşçü







Turqut Şərur rayonunun Yengicə kəndində anadan olub. Balaca vaxtından mehriban, istiqanlı, deyən-gülən uşaq idi. Müəllimləri Turqutdan razılıq edirdilər. VI sinfi bitirdikdən sonra Turqut təhsilini Şərur şəhərində yerləşən liseydə davam etdirdi. Liseydə oxuyan zaman həftəsonları evə gəlirdi. Deyirdi ki, həkim olacağam. Mənə həkim Turqut Xəlilbəyli deyəcəklər. Mən də bir ana kimi övladımı həkim görmək istəyirdim. Bu arzuya çatdıq. Turqut Azərbaycan Dövlət Tibb Universitetinin Hərbi tibb fakültəsinə qəbul oldu. Universiteti bitirdikdən sonra Turqutun təyinatını Beyləqan rayonundakı “N” hərbi hissəyə verdilər.

Beyləqanda 2 il idi ki, məntəqə rəisi işləyirdi. Xoş sorağını eşidib sevinirdik. Həkim işlədiyi müddətdə hər kəs ondan razılıq edirdi. Ara-sıra məzuniyyət götürüb gəlirdi. Bəzən Bakıda bir-birimizi görürdük. Son dəfə görüşəndə bir az şikayətləndim. Dedim ki, oğul, heç mənimlə vaxt keçirmirsən. Turqut da gülə-gülə dedi ki, mən gedirəm. Məzuniyyət götürüb gələndə səninlə çox vaxt keçirəcəyəm. Ancaq mən bilməzdim, bu onunla son görüşüm olacaq. Heç ağlıma da gətirməzdim.

Müharibə başlayan zaman Turqut könüllü yazılmışdı. Bundan bizim xəbərimiz yox idi. Deyirlər ki, o, müharibəyə gedən ilk gündən yaralı əsgər və zabitlərimizi döyüş zonasından çıxarırmış. Yaralı əsgərlər olmadığı vaxtlarda isə müharibədə iştirak edirmiş. Döyüş yoldaşları Turquta “Sən həkimsən, irəli getmə”, – deyirmişlər. O isə bununla razılaşmırmış. Deyirmiş ki, mən həm həkiməm, həm də döyüşçü. Turqut bizimlə danışan zaman müharibədə olduğunu deməmişdi. Biz onun müharibəyə könüllü yazıldığını şəhid olandan sonra bildik. Oktyabrın 7-də şəhidlik zirvəsinə ucaldı. 2-ci Fəxri xiyabanda dəfn edilib. Prezidentimizin Sərəncamı ilə orden və medallarla təltif olunub.

Turqut şəhid olandan sonra vaxtilə kömək etdiyi insanlar bizim evimizi ziyarət edirlər. Onun yardımsevərliyindən, qəhrəmanlığından ağızdolusu danışırlar. Mən bir ana olaraq oğlumla fəxr etmişəm. İndi də fəxr edirəm ki, mənim Turqut kimi övladım var. Mən Turqutumu hər zaman ağxalatlı həkim kimi görmək istəyirdim. Amma bu mənə qismət olmadı. Oğlum cismən yanımızda deyil. O, daim bizim qəlbimizdədir. Vətən sağ olsun! Allah bütün şəhidlərimizin məkanını cənnət etsin!




## "Yüz ilin Naxçıvanı" adlı kitabın təqdimatı keçirilib

Naxçıvan Dövlət Universitetinin Elmi kitabxanasında "Şərq qapısı" qəzetinin əməkdaşı, iqtisad üzrə fəlsəfə doktoru, Bələdiyyə və turizm kafedrasının dosenti Əli Cabbarovun "Yüz ilin Naxçıvanı" adlı kitabının təqdimatı keçirilib.

Naxçıvan Dövlət Universitetinin Elm və innovasiyalar üzrə prorektoru, biologiya üzrə fəlsəfə doktoru, dosent Elsevər Əsədov təqdimatı açaraq bildirib ki, dövlət başçısı cənab İlham Əliyevin Sərəncamı ilə 2024-cü ildə Naxçıvan Muxtar Respublikasının 100 illik yubileyi qeyd olunub. O qeyd edib ki, yubiley ilinə töhfə olaraq Əli Cabbarovun hazırladığı bu kitabda müəllifin muxtar respublikanın tarixi, həmçinin iqtisadi, sosial və mədəni inkişafı, eləcə də dövlət başçımızın apardığı uğurlu daxili və xarici siyasətlə bağlı "Şərq qapısı" qəzetində, ABŞ-da, eləcə də digər mənbələrdə çap olunmuş məqalələri toplanıb.

Təqdimatda çıxış edən universitetin Jurnalistika və xarici ölkələr ədəbiyyatı kafedrasının müdiri, filologiya üzrə fəlsəfə doktoru, dosent Şəhla Şirəliyeva "Şərq qapısı" qəzetinin baş redaktor müavini Məmməd Babayevin ön söz yazdığı və ötən ilin dekabrında "Əcəmi" Nəşriyyat-Poliqrafiya Birliyində nəşr olunmuş "Yüz ilin Naxçıvanı" adlı kitabda toplanmış məqalələrin əhəmiyyətinə, onların publisistik üslubuna toxunub.

Universitetin İqtisadiyyat və idarəetmə fakültəsinin dekanı, iqtisad üzrə fəlsəfə doktoru, dosent Əşrəf Ələkbərov, Bələdiyyə və turizm kafedrasının müdiri, fəlsəfə üzrə fəlsəfə doktoru Flora Kərimova və kafedranın baş müəllimi Günel İsayeva təqdimatda çıxış edərək 100-ə yaxın elmi əsərin müəllifi olan Əli Cabbarovun iqtisadiyyat və turizm sahəsindəki uğurlu tədqiqatlarını diqqətə çatdırıb, ona yeni elmi və yaradıcılıq uğurları arzulayıblar.

Təqdimat tədbirində çıxış edən universitetin qocaman əməkdaşlarından fəlsəfə üzrə elmlər doktoru, professor Məmməd Rzayev və Xarici dillər fakültəsinin dekanı, pedaqogika üzrə fəlsəfə doktoru, dosent Şirməmməd Qulubəyli Əli Cabbarovun elmi araşdırmaçı və jurnalist fəaliyyəti ilə bağlı gördüyü işlərdən danışıb, müəllifə yeni uğurlar arzu ediblər.

Tədbirdə çıxış edən Şahbuz rayon Kükü kənd tam orta məktəbinin təqaüdçü müəllimi Yunis Quliyev ötən ilin onlar üçün də əlamətdar olduğunu, Kükü məktəbinin 100 illik yubileyinin dövlət səviyyəsində keçirildiyini, təqdimatı keçirilən bu kitabda həmin yubileylə bağlı beş məqalənin də yer aldığını diqqətə çatdırıb. Daha sonra çıxış edənlərdən biologiya üzrə fəlsəfə doktoru, universitetin Biologiya kafedrasının müəllimi, "Şərq qapısı" qəzetinin əməkdaşı Turan Məmmədli və Naxçıvan Muxtar Respublikasının Əməkdar artisti Səməd Canbaxşıyev 10 kitabın, 1400-ə yaxın publisistik yazının müəllifi olan Əli Cabbarova daha böyük uğurlar arzu ediblər.

Sonda tədbir iştirakçılarına təşəkkür edən müəllif səmərəli fəaliyyət üçün yaradılmış şəraitə görə minnətdarlığını ifadə edərək yeni kitabını oxucülara hədiyyə edib.

## Naxçıvanın dilçi alimlərindən bəhs edən kitab ictimaiyyətə təqdim olunub




AMEA Naxçıvan Bölməsində "Naxçıvan dilçilik məktəbi" kitabının təqdimatı olub. Təqdimat mərasimini giriş sözü ilə bölmənin sədri, akademik İsmayıl Hacıyev açıb.

Bölmə sədri diqqətə çatdırıb ki, "Naxçıvan dilçilik məktəbi" kitabı Naxçıvan Muxtar Respublikasının 100 illik yubileyi çərçivəsində nəşr olunan əsərlər sırasındadır. "Elm və təhsil" nəşriyyatında nəfis tərtibatda nəşr olunmuş kitab Azərbaycan dilçilik elminin müxtəlif istiqamətləri üzrə tədqiqat aparan, dilçiliyin tarixini araşdıran Naxçıvan dilçi alimlərinin həyat və yaradıcılığını özündə əks etdirir. Kitabın müəllifləri AMEA Naxçıvan Bölməsi İncəsənət, Dil və Ədəbiyyat İnstitutunun direktoru, AMEA-nın müxbir üzvü, professor Əbülfəz Quliyev və AMEA Nəsimi adına Dilçilik İnstitutunun Terminologiya şöbəsinin müdiri, filologiya elmləri doktoru, professor Sayalı Sadıqovadır.

Çıxış zamanı Azərbaycan dilçiliyinin müxtəlif sahələri üzrə fundamental əsərlər yazmış alimləri xatırladan akademik onlardan bəziləri barədə məlumat verib, ensiklopedik xarakterli "Naxçıvan dilçilik məktəbi"nin əsaslı mənbə rolunu daşıyacağına inamını ifadə edib.

Sonda İsmayıl Hacıyev müəllifləri təbrik edib, onlara yeni yaradıcılıq uğurları arzulayıb.

İncəsənət, Dil və Ədəbiyyat İnstitutunun Dilçilik şöbəsinin baş elmi işçisi, filologiya elmləri doktoru Nuray Əliyeva tədbirdə "Naxçıvan dilçilik məktəbi" əsəri haqqında bir neçə söz" adlı məruzə ilə çıxış edib.

Alim əvvəlcə dünya dilçilik elminin tarixinə nəzər salıb, antik dini-fəlsəfi məzmunlu mətnlər üzərində aparılan tədqiqatlardan bəhs edib. Azərbaycan dilçiliyinin Naxçıvan məktəbinin formalaşmasında mühüm rolu olmuş dilçi alimlər, onların elmi yaradıcılığı barədə müfəssəl məlumat verib.

Kitabın əhatə etdiyi 4 bölməni ayrı-ayrılıqda təsvir edən məruzəçi qeyd edib ki, əsər orta əsrlərdən günümüzədək Naxçıvanın Azərbaycan dilçiliyinə bəxş etdiyi alimlər haqqında ensiklopedik məlumatları özündə əks etdirir.

"Naxçıvan dilçilik məktəbinin qaynaqları" adlı ilk bölmədə H.Naxçıvani, M.Naxçıvani və M.T.Sidqi Səfərovdan, adıçəkilən müəlliflərin yaradıcılığından bəhs olunur.

"Azərbaycan Milli Elmlər Akademiyasının həqiqi və müxbir üzvləri" başlıqlı ikinci bölmədə M.Cəfərov, M.Nağısoylu, A.Bağırov, Ə.Quliyevin elmi yaradıcılığı əhatəli təsvir olunur.

Kitabın növbəti bölmələrində isə M.Şahtaxtlı, N.Məmmədov, H.Bayramov, V.Əliyev, F.Zeynalov, Y.Seyidov, Q.Bağırov başda olmaqla Azərbaycan dilçilik elmini sanballı əsərlərlə zənginləşdirən 24 elmlər doktoru, 51 fəlsəfə doktoru elmi dərəcəsi almış alim haqqında ətraflı məlumat verilir.

İncəsənət, Dil və Ədəbiyyat İnstitutunun Onomastika şöbəsinin müdiri, filologiya üzrə fəlsəfə doktoru, dosent Firudin Rzayev və gənc əməkdaş Rüzgar Camal mərasimdə çıxış edərək Azərbaycan dilinin keçdiyi inkişaf və formalaşma prosesindən, tarixən Qafqazın ümumişlək dili olmasından və "Naxçıvan dilçilik məktəbi" kitabının əhəmiyyətindən danışıblar.

Sonda müəlliflər adından çıxış edən professor Əbülfəz Quliyev Naxçıvan dilçilik məktəbi yetirmələrinin elmə verdikləri töhfələrdən danışıb, təqdimat mərasiminin təşkilinə görə minnətdarlığını bildirib.

## Naxçıvanda yaradılan İmtahan Mərkəzində müxtəlif profilli imtahanlar təşkil edilir



"Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafına dair 2023-2027-ci illər üçün Dövlət Proqramı"na uyğun olaraq ötən il Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyinin tabeliyində İmtahan Mərkəzi yaradılıb.

Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinin dəstəyi və Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyinin təşkilatçılığı ilə yaradılan mərkəzdə 300-dən artıq namizəd eyni anda imtahanda iştirak edə bilir.

Mərkəzdə müasir tələblərə cavab verən elektron daşıyıcılar, səs və görüntüləri qeyd edən veb-kameralar quraşdırılıb.

Mərkəzdə bu günə kimi müəllimlərin sertifikatlaşdırma prosesi, müəllimlərin və məktəb direktorlarının, məktəbəqədər təhsil müəssisələrinin metodist və tərbiyəçi müəllimlərinin işə qəbulu təşkil olunub.

Qeyd edək ki, Naxçıvan şəhər 4 nömrəli tam orta məktəbin binasında yaradılan bu mərkəzin imkanlarından Azərbaycan Respublikası Dövlət İmtahan Mərkəzi istifadə edir.

## Dövlətimizin əsas prioritetlərindən biri də vətəndaşların sosial rifahının yaxşılaşdırılmasıdır

Ölkəmizdə daim inkişaf edən, yenilənən sahələrdən biri də insanların özünüməşğulluğunun təmin olunmasıdır. Sosial-iqtisadi siyasətimizin əsasını təşkil edən bu sahənin müasir tələblər səviyyəsinə qaldırılması prioritet amilə çevrilib. Bunun bariz ifadəsidir ki, ötən ilin sonlarında Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəsi Fuad Nəcəfli "Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafına dair 2023-2027-ci illər üçün Dövlət Proqramı"nda nəzərdə tutulan tədbirlərin icrası məqsədilə Azərbaycan Respublikasının ərazi bütövlüyünün, müstəqilliyinin və konstitusiya quruluşunun müdafiəsi və hərbi xidmət vəzifələrini yerinə yetirməklə əlaqədar əlilliyi müəyyən olunmuş insanlara özünüməşğulluq proqramının icrasının davamı kimi səyyar kofe evləri və avtomobillər təqdim edib.

Biz də həmin şəxslərlə görüşüb onların təəssüratlarını öyrəndik:



Şahbuz rayonunun Kolanı kənd sakini ***Samir Oruclu:*** "Ailəmin və yaxın dostlarımın tövsiyəsi ilə 2024-cü ilin mart ayında səyyar kofe evi ilə bağlı ƏƏSMN-nə müraciət etdim. Bu kofe evləri özünüməşğulluq proqramı üçün nəzərdə tutulmuşdur. Mənim bu sahə üzrə təcrübəmin də olduğunu nəzərə alaraq kofe aparatı ilə təmin etdilər. Müsahibimiz qeyd etdi ki, biz gənclərə dövlətimizin belə dəstək olması, həqiqətən də, təqdirəlayiqdir. Fəaliyyətə başlamağımız üçün yalnızca VÖEN açmaq tələb olunur. Şənliklərdə və festivallarda kirayə haqqı ödəmədən fəaliyyət göstərə bilərik. Elə məhz ötən günlərdə "Snowfest"də kofe evinin açılışını etdik. Burada kofe ilə yanaşı, çay, sərinləşdirici içkilər, kokteyllər və sair satmaq mümkündür və biz də bu məhsulların satışını həyata keçirəcəyik. Müsahibimiz bildirdi ki, bu sahədən daha yaxşı gəlir əldə etmək üçün ən başlıca amillərdən biri də onun fəaliyyət göstərəcəyi yerdir. "Avtobus dayanacaqlarında, insanların sıx olduğu mərkəz hissələrdə fəaliyyət göstərməyi nəzərdə tuturuq, bunun üçün hər hansı bir məhdudiyyət yoxdur".



Digər müsahibimiz Naxçıvan şəhər sakini 57 yaşlı ***Baxşı Vəliyev*** deyir: "1990-cı ildə xüsusi təyinatlı polis dəstəsinə qoşulduqdan sonra Birinci Qarabağ müharibəsində gedən döyüşlərdə də iştirak etmişəm: Sonra 1992-ci ildə Sədərək rayonunda gedən döyüşlərdə iştirak edərkən Miltəpə postu yaxınlığında baş verən partlayış nəticəsində xəsarət alaraq qazi statusu almışam".

Müsahibimiz bildirdi ki, 2-ci qrup əlillik statusu müəyyən olunduqdan sonra hərtərəfli diqqət və qayğıdan bəhrələnib. Bir neçə gün əvvəl onlara təqdim olunan avtomobillər də bunun əyani sübutudur. Bu avtomobil ailəmin rahatlığını təmin etmək üçün gözəl düşünülmüş bir təşəbbüsdür.

Vətənə olan sevgisini heç bir hisslə müqayisə edə bilmədiyini dilə gətirən Baxşı Vəliyev deyir: "Mən bir Azərbaycan vətəndaşı olaraq hər zaman torpağım uğrunda canımdan keçməyə hazıram. Çünki Vətən sevgisi hər şeydən öndə dayanır. Biz dövlətimizin himayəsindəyik və bizim sosial rifahımızın yaxşılaşması istiqamətində layihələr həyata keçirilir. Bu yüksək diqqət və qayğı üçün minnətdarıq".

Müsahiblərimizin təəssüratlarından da aydın olur ki, əhalinin ayrı-ayrı qruplarının sosial vəziyyətinin yaxşılaşdırılmasına yönələn tədbirlər dövlətimizin əsas prioritetidir. Belə tədbirlər onların sosial rifahlarının yaxşılaşdırılmasına hədəflənib.

**Bülbül QULİYEVA**



# Qanın üç rəngi

Vətən uğrunda, yurd uğrunda şəhid olanların yeri cənnətdir, deyirlər. Vətəni sevmək imandandır axı. Görəsən buna görəmi cənnət vətənimiz Azərbaycanın ən gözəl guşələrində şəhidlərimiz uyuyur? Paytaxda bütün Bakının panoramının əks olunduğu Dağüstü parkda, Naxçıvanda Arazın sularının kədərli romantikasının duyulduğu Şəhidlər xiyabanında... Erməni işğalçılarına qarşı inadla mübarizə aparan, son damla qanına qədər döyüşərək şəhidlik zirvəsinə ucalmış vətən oğullarının uyuduğu Şəhidlər xiyabanı bu gün hər bir vətəndaşın and yeridir. Buradakı şəhid məzarları arasında addımlayarkən sanki onların hələ də bu yurda göz dikən düşmənə “Biz burdayıq” deyə səsləndiklərini duyuram... Bir zamanlar canları ilə bu torpağı qoruyan şəhidlər elə bil bu gün ruhları ilə eyni missiyanı həyata keçirirlər.



Azərbaycanın, Qafqazın xəritəsinə baxanda Naxçıvan kiçik bir ərazi kimi görünür. Lakin Türk dünyasını bir-birinə bağlayan, türkün türkə uzanmış simvolik əli olan Naxçıvanın əhəmiyyətini dərk etmək üçün, sadəcə, bir məqama diqqət yetirmək kifayətdir. 1990-cı ilin yanvarında sovet imperiyasının işğalçı qoşunları Bakıya hücum etdikləri vaxtda, imperiyanın Qafqazdakı maşası rolunu oynayan Ermənistanın quldur dəstələri də Sədərəkdən başlayaraq Naxçıvanı ələ keçirməyə çalışırdılar.

Soyuq qış gecəsində Bakıda güllələrana tutulmuş günahsız insanların qulaqbatıran fəryadları təkcə yerin deyil, göyün də bağrını yarırdı. Lakin nədənsə bu haraylar bəzi yatmış vicdanları oyatmırdı. Müasir silahlarla silahlanmış ordu əliyalın, günahı olmayan insanların üzərinə hücuma keçir, dinc əhaliyə ağır divan tuturdu. Düşmən Sədərəkdə də eyni missiyanı gerçəkləşdirməyə çalışırdı. Amma xalqın azadlıq və istiqlaliyyətini boğmaq istəyən imperiya dairələrinə igid oğullarımız öz qanıyla cavab verirdi.

Həmin illərdə Naxçıvan olduqca gərgin günlər yaşayırdı. Sərhədyanı kəndləri ermənilər tərəfindən işğal və qarət olunan, dincliyi əlindən alınan Naxçıvan Ulu Öndər Heydər Əliyevin dediyi kimi: “Taleyin ümidinə buraxılmış tənha ada”nı xatırladırdı. Azadlıqdan məhrum olunmağa məcbur edilən xalq ov tüfənginə sarılaraq mərdliklə, rəşadətlə döyüşüb, torpaqlarımızın bütövlüyü uğrunda canını sipər edib əsl qəhrəmanlıq nümunəsi göstərirdi.

O qanlı-qadalı günlərin ağrıacısını Şəhidlər xiyabanı ilə addımlayaraq yad edirəm. Qəlbim kədər, eynilə qürur və dərin minnətdarlıq hissləri ilə doludur. Sanki hamısı sırada, hamısı farağatdadır. Üzlərindən nur, gözlərindən mərdanəlik axan şəhidlərin məzarına baxdıqca zəfər çaldığımız o möhtəşəm təqvimi xatırlayıram. Qəlbim dağa dönür, səssizcə pıçıldayıram: “Qisasınız alınıb, rahat uyuyun...”

Uzaqdan bir məzara sığal çəkən qara paltarlı qadına sataşır gözüm... Titrək addımlarla saçları qar kimi ağ olan anaya yaxınlaşıram. Görünür, 35 il keçsə də, o qara təqvimlə, oğlunun ölümü ilə barışa bilmir. Axı analar oğulsuz yaşamır, yaşaya bilmir... Amma bilir. Bilir ki, bu Vətəni Vətən edən torpağın üstündəki qanlardan biri də onun oğlunun qanıdı. Hələ də kürəyini oğluna söykəyir. Oğlu soyuq bir daş olsa da. Gah buz tutmuş qara məzar daşını öpür, gah da daş üstünə həkk olunmuş şəklə baxıb nəsə pıçıldayır ona... Bu acı mənzərəni görüb ağlamamaq daş kimi ürək istəyir.

...Gözlərim xiyabanın sinəsində ucalan və qürurla dalğalanan üçrəngli bayrağımıza zillənib. Sanki o döyüşlər zamanı şəhid olan oğullarımızın qanının üç rəngi əks olunub bu bayraqda. Bəli, qan real mənasında qırmızıdır, azadlığın qırmızısı! Eynilə Naxçıvan kimi iki türk elinin bayraqlarını bir-birinə bağlayır. Səmanın qırmızıda əks olunan rəngi isə mavidir, qar altında cücərməyə macal tapmamış otların rəngi də yam-yaşıl. Neçə-neçə övladların cücərməyən arzuları kimi...

✍ **Gülcamal TAHİROVA**





## Əlincəqalanın qış mənzərəsi alman fotoqrafın obyektivində



Naxçıvana səyahət edən alman fotoqraf Klaus Vegel ilk Əlincə qalasını lentə alıb: “Biz ora çatanda çən qalanın zirvəsinə yatmışdı. Çox maraqlı bir görüntü var idi. Zirvəyə qalxdım, hava açıldıqca, gördüyüm gözəllik qarşısında heyran qaldım. Peruda yerləşən Machu-Picchuda olmuşam. Bənzərliyi olsa da, Əlincəqala daha möhtəşəmdir.

Nuh Peyğəmbərin məzarının burada olmasını eşidəndə təəccübləndim. Bu mənim üçün tapıntı oldu. Möminə xatın, Qarabağlar türbəsində, Xan sarayında, Duzdağda oldum. Çox təəssüflənirəm ki, Naxçıvanın məşhur Batabatını və Ordubadı görməyə vaxtım yetmədi. Novruz adət-ənənələrinizi görmək və göstərmək üçün növbəti səfərimi mart ayına planlamışam”.

✍ **Rafiq TƏHMƏZ**



### İtmişdir

Ordubad rayonu, Biləv kəndində yaşamış Zeynalov İbrahim Qulam oğlunun adına olan JN-100A nömrəli “Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə” itdiyindən etibarsız sayılır.

***

Şərur rayonu, Danyeri kənd sakini Novruzov Musa İmran oğlunun adına olan JN-453A, JN-453B və JN-453C nömrəli “Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə”lər itdiyindən etibarsız sayılır.

***

Babək rayonu, Nəzərabad kənd sakini Əsədov Rza Əsəd oğlunun adına olan JN-042A nömrəli, 10311068 kodlu “Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə” itdiyindən etibarsız sayılır.

***

Şərur rayonu, Düdəngə kənd sakini İsgəndərov Mahmud Məmməd oğlunun adına olan 102013005299 reyestr nömrəli hüquqların dövlət qeydiyyatından çıxarış itdiyindən etibarsız sayılır.

### Allah rəhmət eləsin

Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyi Təbii Ehtiyatlar İnstitutunun kollektivi insitutun elmi işlər üzrə direktor müavini, kimya elmləri doktoru, Prezident təqaüdçüsü

**BAYRAM RZAYEVİN**

vəfatından kədərləndiklərini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verirlər.

***

Naxçıvan şəhərindən Əliyev Hüseyn Məşdi oğlu Naxçıvan Müəllimlər İnstitutunun dosenti Samirə Həsənovaya əmisi

**ŞÜKÜR ASLANOVUN**

vəfatından kədərləndiyini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verir.

ŞƏRQ QAPISI
**Baş redaktor müavini:**
MƏMMƏD BABAYEV

**Ünvan:** *AZ-7000, Naxçıvan şəhəri, “Təbriz” küçəsi 14.*
*Telefonlar: Məsul katib: 545-62-47*
*Şöbələr: 545-81-44, 545-51-18*
*Müxbirlər: 545-75-21, Faks: 544-52-52*
E-mail: *info@serqqapisi.gov.az*

Qeydiyyat №: 575
*Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır*
*Vöen: 0200065441*

Çapa imzalanmışdır 00:00
Tiraj: 1000. Sifariş № 17

*Nömrəyə məsul:* **Nail Əsgərov, Rafiq Təhməzov, Bülbül Quliyeva**
*Dizayner:* **Lətif Zeynalov**
*Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.*